RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 56 (9511) 13 mart 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Dostluq və qardaşlığın əsl nümunəsi

## İşğaldan azad olunmuş ərazilərin bərpasında Qazaxıstanın xüsusi payı var



**Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçıları tədbirdə Azərbaycanın mədəniyyət və incəsənət xadimləri, Füzuli şəhər sakinləri və Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzində təhsil alacaq uşaqlarla görüşüblər.

Qazaxıstan Prezidenti **Kasım-Jomart Tokayev** dedi:

- Sizi burada, müqəddəs Azərbaycan torpağında görməyimə çox şadam.

Bildiyiniz kimi, mən dünən və bu gün ölkənizdə dövlət səfərindəyəm. Çox şadam ki, bu səfər tam uğurla - dövlətlərimiz arasında çoxşaxəli əməkdaşlığın gələcək inkişafına ən ciddi təkan verəcək son dərəcə mühüm sənədlərin imzalanması ilə başa çatır. Biz qardaş xalqlarıq, müttəfiqik, strateji tərəfdaşıq. Bunlar təkcə sözlər deyil, həm də ölkələrimizin hökumətlərinin görəcəyi böyük iş həcmləridir, çünki razılaşmalar çox ciddidir, çox böyükdür və şübhəsiz, onlar iqtisadiyyatlarımızın inkişafına impuls verəcək ki, bu da çox vacibdir. Ona görə də dövlətlərimiz arasında əməkdaşlığın gələcəyinə böyük nikbinliklə baxıram.

→ 2

◆ Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfəri

## Füzuli Beynəlxalq Hava Limanında qarşılanma



**Azərbaycan Respublikasında dövlət səfərində olan Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev martın 12-də Füzuli rayonuna gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşıladı.

## Füzuli şəhərinin baş planı ilə tanışlıq



**Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Füzuli şəhərinin baş planı ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçılarına Füzulidə görülən və həyata keçiriləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonalar yaradılacaq.

→ 2

## Füzuli Mərkəzi Rayon Xəstəxanasının layihəsi ilə tanışlıq



**Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Füzulidə inşa olunacaq mərkəzi rayon xəstəxanasının layihəsi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, səhiyyə naziri Teymur Musayev dövlət başçılarına xəstəxanada yaradılacaq şərait barədə məlumat verdi.

→ 3

## Azərbaycan və Qazaxıstan prezidentləri Şuşaya səfər ediblər



**Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Şuşa şəhərinə səfər ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçıları Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir bəy Hacıbəylinin işğal dövründə Şuşada ermənilər tərəfindən güllləbaran edilmiş heykəllərinə baxdılar.

Bildirildi ki, işğal zamanı ermənilər həmin heykəlləri Ermənistana apararaq əritmək istəyiblər.

→ 4

## Azərbaycan və Qazaxıstan enerji sahəsində də birgə addımlayır

**Azərbaycanın və Qazaxıstanın karbohidrogen ehtiyatları ilə zəngin olması bu iki qardaş ölkəyə neft və qaz sektorunda da əməkdaşlığı genişləndirməyə imkan verir. İndi bu əməkdaşlıq getdikcə şaxələnir. Belə ki, "yaşıl enerji" potensialı böyük olan ölkələrimiz enerji keçidi dövründə yeni layihələrə imza atır və bu sahədə sıx əlaqələr yaradırlar.**

Qazaxıstan bizim enerji layihələrimizi həmişə dəstəkləyib. Hələ 1999-cu ilin noyabr ayında İstanbul şəhərində Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin marşrutunu müəyyənləşdirən sənədi Azərbaycan, Gürcüstan, Türkiyə, ABŞ prezidentləri ilə birgə Qazaxıstanın dövlət başçısı da imzalamışdı.

2005-ci ilin may ayında BTC-yə ilk neft vurularkən Səngəçal terminalında keçirilən tədbirdə Azərbaycan, Gürcüstan, Türkiyə prezidentləri ilə yanaşı, Qazaxıstanın dövlət başçısı da iştirak etmişdi. Bu kəmərə xeyli müddətdir Qazaxıstan nefti də vurulur.

→ 6

Cənab Kasım-Jomart Tokayevin də dediyi kimi, Azərbaycan və Qazaxıstan Orta dəhlizin önəmli ölkələrindən sayılır. Xüsusilə Zəngəzur dəhlizinin açılması Çinin Avropa və Türkiyə üzərindən Asiya, həmçinin Şimali Afrika ölkələri ilə ticarət əlaqələrini genişləndirməsinə daha böyük imkanlar yaradacaq. Belə ki, ilkin hesablamalara görə, Zəngəzur dəhlizi Orta dəhlizin daşınma qabiliyyətini ildə 8-10 milyon tona qədər artırmağa imkan verə bilər.

## Orta dəhlizin iki əsas ölkəsi

*Kasım-Jomart TOKAYEV:* "Bu səbəbdən Astana ilə Bakı kompleks addımlar atır"




→ 6

## Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfəri

# Dostluq və qardaşlığın əsl nümunəsi

## Füzuli şəhərinin baş planı ilə tanışlıq

*Əvvəli 1-ci səh.*

Yaşayış ərazilərinin sıxlığının müəyyənləşdirilməsində proqnozlaşdırılan əhali sayı ilə yanaşı, təklif edilən digər şəhər xidmətlərinin yerləşməsi də nəzərə alınıb. Məşğulluğun və sosial xidmətlərin təmini üçün şəhərdə 9 ümumi və orta təhsil müəssisəsi, 13 məktəbəqədər təhsil müəssisəsi, peşə təhsili müəssisəsi, internat tipli musiqi məktəbi, xəstəxana, idman və sağlamlıq mərkəzi, mədəniyyət mərkəzi, inzibati mərkəz, idman kompleksinin inşası, Qələbə və Memorial park, 6 məhəllə parkı və şəhər meydanının, ərazisi 150 hektardan çox olan ekoparkın salınması planlaşdırılıb.

Xüsusi vurğulandı ki, ötən ilin avqustunda Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan 960 şagird yerlik Mirzə Uluqbəy adına məktəbin, bu gün isə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin





istifadəyə verilməsi füzulililər üçün unudulmaz hədiyyə olmaqla yanaşı, ölkələrimizin və xalqlarımızın dostluğunun, qardaşlığının sarsılmazlığının daha bir göstəricisidir.

Diqqətə çatdırıldı ki, baş planda Füzuli şəhərinin dayanıqlı inkişafı, ağıllı həllər əsasında qurulması və insanların sağlam həyatını təmin etmək üçün ən müasir şəhərsalma yanaşmaları tətbiq edilib.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə işğalçı Ermənistanın 30 il ərzində Füzuli rayonunun ərazisində törətdiyi dağıntılar, vandalizm aktları barədə də məlumat verildi.

# Azərbaycan və Qazaxıstan prezidentləri Füzulidə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak ediblər

*Əvvəli 1-ci səh.*

Mədəni-humanitar sahədə əlaqələrin inkişafına, möhkəmləndirilməsinə böyük diqqət yetiririk. Burada Qazaxıstan mədəniyyət günləri böyük müvəffəqiyyətlə keçirildi. Dünən səmimi qəbula görə minnətdarlığımı bildirdim. Azərbaycanın mədəniyyət xadimlərini Qazaxıstanda gözləyirik.

Azərbaycanın hörmətli Prezidenti İlham Heydər oğlu Əliyevin Sumqayıt şəhərində bir küçəyə Qazaxıstanın məşhur maarifçisi Axmet Baytursınovun adının verilməsi qərarına görə ona çox minnətdaram. Eyni zamanda ötən il biz hörmətli Prezidentlə paytaxtımızda dahi dövlət xadimi Heydər Əliyevin şərəfinə adlandırılmış küçənin açılışını etdik. Belə təmaslar, şübhəsiz ki, davam edəcəkdir.

Sizi bir daha müqəddəs ramazan ayı münasibətilə təbrik edirəm. Sizə ən xoş arzularımı çatdırıram.

Bu mərkəz Qazaxıstan xalqı adından bizim hədiyyəmizdir. Hökumətin tapşırığına və mənim şəxsi göstərişimə əsasən, "BI Group" özəl şirkəti bu hədiyyəni səmimi-qəlbdən, bütün xalqın adından təqdim edir. Zənnimcə, bu obyekt, şübhəsiz ki, ölkələrimiz arasında rifahın, bütün əlaqələrin, hərtərəfli münasibətlərin möhkəmləndirilməsinə töhfə olacaq.

Sizə uğurlar, tərəqqi arzulayıram. Heç bir şübhə yoxdur ki, Azərbaycanın müqəddəs regionu güclü inkişaf edəcək. İndicə gələcəyə dair planla tanış olduq və əlbəttə ki, o, miqyası və intensivliyi ilə bizi valeh edir. Sağ olun.

❖ ❖ ❖

Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

- Hörmətli Kasım-Jomart Tokayev, çox sağ olun.

Füzulililər, ictimaiyyətimiz və bütün Azərbaycan xalqı









adından Sizə bu qardaş hədiyyəsinə görə bir daha təşəkkürümü bildirmək istəyirəm.

Azad olunmuş torpaqlarda Uşaq Yaradıcılıq Mərkəzinin yaradılması Sizin şəxsi təşəbbüsünüzdür. Ötən dəfə - ilyarım əvvəl Azərbaycana səfəriniz zamanı bu mərkəzin təqdimatı oldu və bir il ərzində mərkəz tikildi, bu gün onun rəsmi açılışıdır. Mərkəz qazax xalqının böyük oğlu Kurmanqazının adını daşıyır. Dünən biz Sizinlə danışırdıq ki, bu, təkcə Uşaq Yaradıcılıq Mərkəzi deyil, həm də Qazaxıstan ilə Azərbaycan arasında dostluq və qardaşlıq mərkəzi olacaq. Hər bir belə layihə Azərbaycan xalqının qəlbini riqqətə gətirir, çünki 30 il ərzində bu balaca uşaqların valideynləri, babaları və nənələri bir arzu ilə - öz torpaqlarına qayıtmaq arzusu ilə yaşayıblar. Onlar qayıtdıqda dağıdılmış, yerləyeksan edilmiş Qarabağı gördülər, əlbəttə, çox acı hisslər yaşadılar. Bu qayıdışın ağrılı-acılı və eyni zamanda sevinc hissləri bir-birinə qarışmışdı. İndi qardaş Qazaxıstanın köməyi ilə Füzulidə çox gözəl Uşaq Yaradıcılıq Mərkəzi açılır. Bu təşəbbüsə görə Sizə səmimi-qəlbdən minnətdarıq. Bu, azərbaycanlıların, burada yaşayanların və yaşamayanların, buraya gələn və bu gözəl binanı görən hər kəsin yaddaşında qalacaq. Ən başlıcası, buraya gələn, əksəriyyəti Bakıdan, Sumqayıtdan və digər böyük şəhərlərdən olan uşaqlar öz qəlblərinin səsi və əcdadlarının çağırışı ilə tədbirdə iştirak edirlər. Diqqət yetirdikdə görürük ki, burada - Füzulidə yaşayan insanlar, onların əksəriyyəti Füzulinin işğalı dövründə dünyaya gəliblər, yaxud çox balaca olublar. Demək olar ki, onlar öz doğma şəhərini, öz rayonunu görməyiblər, amma bu torpağa məxsus olduqları, uğrunda mübarizə apardığımız, döyüşdüyümüz, qan tökdüyümüz və uşaqlarımızı itirdiyimiz müqəddəs Qarabağ torpaqlarına aid olduqları üçün buraya qayıdıblar.

*Ardı 3-cü səh.*

## Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfəri

# Dostluq və qardaşlığın əsl nümunəsi

## Azərbaycan və Qazaxıstan prezidentləri Füzulidə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak ediblər






*Əvvəli 2-ci səh.*

Bu gün, Qarabağın dirçəldiyi bir vaxtda əziz qardaşımızı, türk dünyasının ən böyük ölkəsinin, sürətli inkişafa malik, beynəlxalq arenada iri aktor olan, Azərbaycanın müttəfiqi qardaş Qazaxıstanın Prezidentini salamlamaqdan böyük şərəf hissi duyuruq. Siz yəqin ki, bizim dünənki görüşlərimizi izləmisiniz, həmçinin axşam da bizimlə birlikdə olmusunuz. Yəqin ki, bu ab-havaya nüfuz etmisiniz. Ünsiyyətimizin bütün işgüzar komponenti ilə yanaşı, məhz mənəvi bağlar bizə güc verir. Sizi təbrik edirəm və sizin adınızdan bir daha Kasım-Jomart Tokayevə təşəkkürümü bildirmək istəyirəm.

Prezident **Kasım-Jomart Tokayev:** Azərbaycanın gənc vətəndaşlarına, müqəddəs Füzuli sakinlərinə ayrıca səadət, uğurlar arzulamaq istəyirəm.

Prezident **İlham Əliyev:** Mən bizim nümayəndələri təqdim edim. Azərbaycan Yazıçılar Birliyinin sədri Anar.

Prezident **Kasım-Jomart Tokayev:** Bəli, tanıyıram.

Prezident **İlham Əliyev:** Konservatoriyanın rektoru. Xalq yazıçısı, yəqin ki, Siz onun da kitablarını bilirsiniz.

Xalq yazıçısı **Çingiz Abdullayev:** Mən onun atası haqqında yazmışam.



Prezident **Kasım-Jomart Tokayev:** Sizə təşəkkür edirəm.

Prezident **İlham Əliyev:** Milli Konservatoriyanın rəhbəri. Memarlar İttifaqının sədri.

Memarlar İttifaqının sədri **Elbay Qasımzadə:** Mən qazax adı daşıyıram, adım Elbaydır. Atam mənə cəbhədə həlak olmuş dostunun adını qoyub.

Prezident **İlham Əliyev:** Məşhur kinorejissor Oqtay Mirqasımov, Rəssamlıq Akademiyasının rektoru Xalq rəssamı Natiq Əliyev, bizim gənc füzulililərimiz, istedadlarımız buradadırlar.

Müəllim **Məhin Orucova:** Hörmətli cənab prezidentlər. Sizi Azərbaycan mədəniyyətinin qədim tarixi mərkəzi olan Qarabağ torpağında salamlayırıq. Cənab Prezident İlham Əliyev, Sizə minnətdarıq ki, bizi öz torpağımıza qaytarmısınız. Biz Sizə və şanlı Ordumuza minnətdarıq.

Bu gün bizim və uşaqlarımız üçün əlamətdar gündür. Bu gün Qazaxıstan milli mədəniyyətinin böyük nümayəndəsi, qazax xalq musiqisinin patriarxı Kurmanqazı Saqırbayulının adını daşıyan Füzuli Uşaq Yaradıcılıq Mərkəzinin açılışıdır. Biz Qazaxıstan Prezidenti cənab Kasım-Jomart Tokayevə və onun simasında bütün Qazaxıstan xalqına belə gözəl mərkəzə görə minnətdarıq. Bütün füzulililər adından uşaq yaradıcılığı fəaliyyətinə göstərilən qayğıya görə iki dövlətin liderlərinə çox təşəkkür edirik.

Bu mərkəzdə uşaqlar təkcə Azərbaycan deyil, həm də qazax mədəniyyətini öyrənəcəklər. Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi Qazaxıstan ilə Azərbaycan arasında dostluğun rəmzi olacaq.

Prezident **Kasım-Jomart Tokayev:** Sağ olun. Həqiqətən Kurmanqazı qazax musiqisinin nəhəngidir, demək olar ki, türk mədəniyyətinin ayrılmaz hissəsidir. Kurmanqazının adı olmadan qazax musiqisini təsəvvür etmək çətindir. Ona görə də deməliyəm ki, onun musiqisi çox dinamikdir və indiyədək çox müasirdir. Məşhur "Küy Sarı Arka" indiyədək böyük həyəcanla dinlənilir.

Prezident **İlham Əliyev:** Əlbəttə, uşaqlar burada onun yaradıcılığını öyrənəcəklər.



❖ ❖ ❖

Dövlət başçıları Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdilər.

Sonra xatirə şəkli çəkdirildi.

Prezidentlər Uşaq Yaradıcılıq Mərkəzində yaradılan şəraitlə tanış oldular.

Qeyd edək ki, Prezident Kasım-Jomart Tokayevin təşəbbüsü ilə inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq mərkəzi qardaş qazax xalqının Azərbaycan xalqına hədiyyəsidir. Təməli 2023-cü ilin martında qoyulan mərkəz 1,5 hektar ərazidə yaradılıb. Obyektin tikinti sahəsi 2700 kvadratmetrdir. İkimərtəbəli binada 600 uşağın bir neçə növbədə məktəbdənkənar təhsil alması üçün hər cür şərait yaradılıb. Burada mühazirə zalı, şahmat və kulinariya sinifləri, incəsənət və heykəltaraşlıq studiyası, xoreoqrafiya və idman zalı, səsyazma kabineti, musiqi və vokal sinfi, foto-video montaj, veb-dizayn və robototexnika kabinetləri, akt zalı, 3D modelləşdirmə sinfi var. Mərkəzdə IT-startaplara və Azərbaycanın milli mədəniyyətinə, o cümlədən xalçaçılıq sənətinə xüsusi diqqət yetiriləcək.

Vurğulandı ki, layihəni "BI Group" şirkəti hazırlayaraq həyata keçirib. Tikintidə qabaqcıl texnologiyalardan və şirkətin illər ərzində qazandığı təcrübədən istifadə olunub. Şirkət müasir mühəndis həlləri və təhsil obyektlərinin tikintisi nöqteyi-nəzərindən yüksəksəviyyəli peşəkar təcrübəyə malikdir.

Qeyd edək ki, yeni təhsil kompleksi üçün Kurmanqazı adının seçilməsi də təsadüfi deyil. Görkəmli musiqiçinin əfsanəvi əsərləri bütün türk dünyasının mirasına çevrilib. Mərkəzin yaradılması Azərbaycan və Qazaxıstan arasında ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə, gənclərin keyfiyyətli təhsilinə, regionda yaradıcılığın, idmanın və elmin inkişafına töhfə vermək məqsədi daşıyır.

❖ ❖ ❖

Prezident **Kasım-Jomart Tokayev:** Bu avtobus bizim hədiyyəmizdir. Qazaxıstanın uşaqlara ərməğanıdır, istifadə etmələri üçündür. Üzərində "Balalar" yazılıb.

Prezident **İlham Əliyev:** Sağ olun.

**Qazaxıstan nümayəndəsi:** Qazaxıstanda yığılıb.

Prezident **İlham Əliyev:** Çox sağ olun.

Prezident **Kasım-Jomart Tokayev:** Çox şadam ki, Sizin xoşunuza gəldi. Bu, bizim Azərbaycan xalqına səmimi hədiyyəmizdir. Bilirəm ki, Azərbaycanın potensialı böyükdür və Siz özünüz də bütün bunları edə bilərsiniz, amma biz həmişə qardaşlıq hisslərimizi ifadə etməliyik və belə maddi formada.

**Tədbirin iştirakçıları:** Sizə təşəkkür edirik.

## Füzuli Mərkəzi Rayon Xəstəxanasının layihəsi ilə tanışlıq



*Əvvəli 1-ci səh.*

Bildirildi ki, baş plan layihəsinə əsasən 180 çarpayılıq yeni xəstəxana 4,5 hektar ərazidə inşa olunacaq. Xəstəxananın inşasında Qazaxıstanın "BI Group" və bir sıra Azərbaycan şirkətləri iştirak edəcək. Bu tibb ocağında inzibati bina, qəbul, terapiya, kardiologiya, nevrologiya, cərrahiyyə, travmatologiya-ortopediya, oftalmologiya, otorinolorinqologiya, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri və əməliyyat bloku fəaliyyət göstərəcək.

Xəstəxananın ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından və aptekdən ibarət olacaq. Müalicə ocağı ən müasir tibbi avadanlıqlarla təchiz ediləcək.

Diqqətə çatdırıldı ki, xəstəxana ilə yanaşı, eyni ərazidə Gigiyena və Epidemiologiya Mərkəzi, Təcili Yardım Stansiyası və Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzi də inşa ediləcək.

Burada rayon sakinlərinə yüksək səviyyədə tibbi xidmət göstərmək üçün hər cür şərait yaradılacaq. Beləliklə, öz doğma yurdlarına qayıdacaq rayon sakinləri bu tibb ocağının istifadəyə verilməsi ilə hərtərəfli tibbi xidmətlə əhatə olunacaqlar.

## Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfəri

# Dostluq və qardaşlığın əsl nümunəsi

## Azərbaycan və Qazaxıstan prezidentləri Şuşaya səfər ediblər

*Əvvəli 1-ci səh.*














Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər Prezident İlham Əliyevin göstərişi ilə əvvəlki yerlərinə qaytarılıb.

Prezident İlham Əliyevə və Prezident Kasım-Jomart Tokayevə Şuşanın baş planı barədə məlumat verildi.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov bildirdi ki, şəhərin baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunub saxlanılması əsas götürülüb. Azərbaycanın mədəniyyət paytaxtında həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulub. Baş planda Şuşada orta, yüksək və qarışıq sıxlıqlı yaşayış binalarının inşası, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binaların və abidələrin yerləri əksini tapıb. Hazırda baş plan əsasında Şuşada bərpa və yenidənqurma işləri davam etdirilir.

Natəvan bulağı ilə tanışlıq zamanı qeyd olundu ki, Şuşa işğaldan azad edildikdən qısa müddət sonra istifadəyə verilən "Xan qızı" bulağı şəhərin məşhur məkanlarından biridir. Xan qızı Xurşidbanu Natəvan təkcə şairə kimi deyil, xeyirxahlığı ilə də tanınırdı. Natəvanın vaxtilə şəhərə çəkdirdiyi su xətti "Xan qızı" bulağı adı ilə məşhur idi. İşğal dövründə suyu quruyan bulaq yenidən sakinlərin və şəhərin qonaqlarının istifadəsindədir.

Prezidentlər daha sonra Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisinə baxdılar.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlət başçılarına mərkəz və sərgi barədə məlumat verdi.

Bildirildi ki, Yaradıcılıq Mərkəzi Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra ötən il mayın 10-da istifadəyə verilib. Bina ölkə əhəmiyyətli memarlıq abidəsi siyahısındadır.

Qeyd edildi ki, "Heydər Əliyev və Qarabağ" sərgisində Ulu Öndərin Qarabağda sosial, iqtisadi, siyasi və mədəni inkişaf sahələrindəki xidmətlərini əks etdirən nadir fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur. Həmçinin sərgidə Ümummilli Liderin vaxtilə Qarabağa səfərlərinə, burada keçirdiyi görüşlərə, müxtəlif tədbirlərə aid fotolar yer alıb.

Məlumat verildi ki, 1969-cu ildən etibarən Qarabağın və Şərqi Zəngəzurun tarixində böyük dönüş dövrü başladı. Doğma xalqının böyük təəssübkeşi olan Heydər Əliyev mürəkkəb tarixi şəraitdə bölgə həyatının bütün sahələrində geniş islahatlar aparmağa nail oldu. 1979-cu il yanvarın 12-də Ümummilli Liderin iştirakı ilə Ağdam-Xankəndi dəmir yolu açıldı. Bu, Ulu Öndər Heydər Əliyevin Qarabağın Azərbaycanın digər rayonlarının təsərrüfat və iqtisadi cəhətdən daha çox birləşdirilməsi baxımından strateji addımı və böyük tarixi xidməti idi. Ulu Öndər Şuşanın inkişafına da xüsusi əhəmiyyət verir və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirirdi.

Sonra prezidentlər Saatlı məscidində oldular. Məlumat verildi ki, məscid 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabağinin layihəsi əsasında inşa olunub. XIX əsrin memarlıq abidəsi olan Saatlı məscidinin inşa edildiyi yerdə əvvəllər Molla Pənah Vaqifin dərs dediyi bir-birinə bitişik mədrəsə və məscid binaları olub. Şuşa şəhəri işğal altında olduğu müddətdə digər məscidlər kimi, Saatlı məscidi də ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin dekabrından məsciddə Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılıb və ötən ilin may ayında məscidin açılışı olub.

Dövlət başçıları daha sonra Bülbülün ev-muzeyində oldular.

Muzey barədə məlumat verən Polad Bülbüloğlu bildirdi ki, Ümummilli Lider Heydər Əliyevin göstərişi əsasında keçmiş Şuşa Şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsi 1982-ci il 31 avqust tarixli qərarı ilə Bülbülün doğulduğu və yaşadığı evin muzeyə çevrilməsi barədə qərar qəbul edib. Bina 1982-1983-cü illərdə təmir olunub, muzey ekspozisiyası qurulub və önündə inzibati bina inşa edilib. Ev-muzeyi 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandırıb. Şuşa işğaldan azad olunduqdan sonra isə Bülbülün ev-muzeyində də bərpa işləri aparılıb və 2021-ci il avqustun 29-da muzeyin açılışı olub.

Azərbaycan və Qazaxıstan prezidentləri Cıdır düzündə də oldular.

Ali qonağa məlumat verildi ki, Cıdır düzü Şuşanın rəmzlərindən biri, tarixən cıdır yarışlarının və Qarabağ xanlığı dövründən yerli türk əhalinin Novruz bayramını və digər el şənliklərini keçirdiyi ərazidir.

Sonra dövlət başçıları XIX əsrin ortalarında Qarabağ memarlıq məktəbinə xas tərzdə inşa edilmiş üç yaşayış binasından ibarət "Yasəmən" hotelində oldular.

Bildirildi ki, Şuşa şəhərinin Köçərli küçəsində yerləşən və işğal zamanı dağıdılan həmin binalar Heydər Əliyev Fondu tərəfindən bərpa edilərək hotel kimi istifadəyə verilib. Autentik üslubda bərpa edilən "Yasəmən" hotelinin eksteryeri və interyeri buraya gələnləri Orta əsr Şuşasına qaytarır. Hotel "double", "twin" və "junior" otaqların olduğu iki korpusdan, restoran və bir neçə terrasdan ibarətdir. Qonaqlar hotelin həyətində dövrünün üslubuna uyğun salınan bağçada və terrasda dincələ, şəhərin mənzərəsini seyr edə bilərlər. Terrasdan Mehmandarovların malikanə kompleksinə və ümumi şəhərə gözəl mənzərə açılır. Hotelin interyeri, otaqları xüsusi dizayn edilib. Buradakı hər bir element, əşya məhz bu dizayna uyğun seçilib. Bu da qonaqlarda nostalji hisslər yaradır.

Mədəniyyət paytaxtı Şuşa ilə tanışlıq ali qonaqda dərin təəssürat doğurub.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Sizi seçkilərdə qələbəniz münasibətilə təbrik edirəm.

Sizi əmin edirəm ki, Yunanıstan xalqlarımızın mənafeyi, eləcə də daha geniş regionda sabitlik naminə qarşılıqlı maraq doğuran bütün sahələrdə ikitərəfli əməkdaşlığımızı inkişaf etdirmək istəyir.

Zati-aliləri, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edəsiniz.

*Hörmətlə,*

***Katerina SAKELLAROPULU,***
***Yunanıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, regional və beynəlxalq əlaqələrə töhfə verəcək vəzifənizin icrasında uğurlar arzulayırıq.

Liviya Dövləti ilə dost Azərbaycan Respublikası arasında yüksəksəviyyəli münasibətləri vurğulamaqla yanaşı, ümumi maraq doğuran məsələlərdə Sizinlə gələcək əməkdaşlığı səbirsizliklə gözləyirik. Bütün sahələrdə və səviyyələrdə ikitərəfli əməkdaşlıq münasibətlərini möhkəmləndirən dost ölkələrimiz üçün ortaq məsələlərə xüsusi diqqət yetirəcəyinizə əminliyimizi ifadə edirik.

Dərin hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Məhəmməd Yunis Əl-MƏNFİ,***
***Liviya Dövləti Prezident Şurasının Sədri***

## Tbilisidə Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət olunub

**Gürcüstanda səfərdə olan Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi Ramil Usubov martın 12-də Tbilisinin mərkəzindəki Heydər Əliyev parkında Ulu Öndərin abidəsini ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, Ramil Usubov abidə önünə əklil qoyub, Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla anıb.

Təhlükəsizlik Şurasının katibini Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və digər rəsmi şəxslər müşayiət ediblər.



R.Usubov həmçinin Tbilisidəki Qəhrəmanlar meydanında Gürcüstanın ərazi bütövlüyü uğrunda həlak olmuş qəhrəmanların xatirəsini yad edib, abidənin önünə əklil qoyub.

## Gürcüstan parlamentinin nümayəndə heyəti Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





**Azərbaycanda səfərdə olan Gürcüstan parlamentinin Təhsil, elm və gənclər məsələləri üzrə komitəsinin sədri Givi Mikanadzenin başçılıq etdiyi nümayəndə heyəti martın 12-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, abidə önünə tər çiçəklər düzüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sonra nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edərək ölkəmizin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb. Eyni zamanda "Əbədi məşəl" abidəsi ziyarət olunub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

***"Azərbaycan"***

## Gürcüstan ilə Azərbaycan arasında müxtəlif formatlarda əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb

**Gürcüstanın Baş naziri İrakli Kobaxidze Tbilisidə səfərdə olan Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstan Hökumət Dəftərxanasından məlumat verilib.

Bildirilib ki, görüşdə tərəflər Gürcüstan ilə Azərbaycan arasında ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Söhbət zamanı regionda sabitliyin və uzunmüddətli sülhün vacibliyi vurğulanıb.

Eyni zamanda ölkələrimiz arasında möhkəm strateji tərəfdaşlıq və regional layihələr diqqət mərkəzində olub.



İrakli Kobaxidze Gürcüstanın suverenliyinə və ərazi bütövlüyünə göstərdiyi davamlı dəstəyə görə Azərbaycana təşəkkür edib. Bundan əlavə, Gürcüstanın Azərbaycanın ərazi bütövlüyünə güclü dəstəyi qeyd edilib.

## Azərbaycan ilə Gürcüstan arasında təhlükəsizlik sahəsində əməkdaşlığın perspektivləri müzakirə edilib

**Tbilisidə səfərdə olan Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi Ramil Usubov martın 12-də Gürcüstanın daxili işlər naziri, Milli Təhlükəsizlik Şurasının katibi Vaxtanq Qomelauri ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstan Daxili İşlər Nazirliyi məlumat yayıb.



Bildirilib ki, görüşdə iki ölkənin müvafiq strukturları arasında təhlükəsizlik sahəsində əməkdaşlığın dərinləşdirilməsinin vacibliyi qeyd edilib.

Söhbət zamanı regionda baş verən hadisələr və təhlükəsizlik sahəsində aktual məsələlər diqqət mərkəzində olub.

Vaxtanq Qomelauri səmərəli əməkdaşlığa görə Ramil Usubova təşəkkürünü bildirib, tərəfdaşlıq əlaqələrinin gələcəkdə də müxtəlif istiqamətlərdə fəal şəkildə davam edəcəyinə və dərinləşəcəyinə ümidvar olduğunu vurğulayıb.

## Azərbaycanın Təhlükəsizlik Şurasının katibi Gürcüstanın müdafiə naziri ilə görüşüb

**Gürcüstanda səfərdə olan Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov bu ölkənin müdafiə naziri İrakli Çikovani ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstanın Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, tərəflər Gürcüstan ilə Azərbaycan Respublikası arasında strateji əməkdaşlığın əhəmiyyətindən danışıblar.



Müdafiə naziri qeyd edib ki, Gürcüstan Cənubi Qafqazda sülh və sabitliyin bərqərar olması prosesinə töhfə verməyə bundan sonra da hazırdır.

Görüşdə müdafiə sahəsində əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Diqqətə çatdırılıb ki, Azərbaycan ilə Gürcüstan arasında müdafiə sahəsində ikitərəfli əməkdaşlıq illik plana uyğun olaraq intensiv şəkildə həyata keçirilir.

Söhbət zamanı həmçinin Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli əməkdaşlıq formatının əhəmiyyətinə diqqət çəkilib.

İrakli Çikovani deyib ki, Gürcüstan bu il müdafiə nazirlərinin üçtərəfli görüşünə evsahibliyi edəcək.

## Azərbaycanla Gürcüstan arasında mühüm strateji layihələr müzakirə olunub

**Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycanın bu ölkədəki səfiri Faiq Quliyevlə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq, yaxın qonşuluq və dostluq münasibətləri diqqət mərkəzində olub. Tərəflər müxtəlif sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıblar.

İki ölkə arasında iqtisadiyyat, nəqliyyat və enerji sahələrində tərəfdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb, mühüm strateji layihələr müzakirə olunub.

Söhbət zamanı regional vəziyyətə toxunulub, sülh və sabitliyin vacibliyi vurğulanıb.

## Vətənə, dövlətə, xalqa sədaqət nümunəsi









**Martın 12-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının növbəti ildönümü qeyd edilib. Bu münasibətlə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov, Daxili Qoşunların rəhbər heyəti və hərbi qulluqçuları Fəxri xiyabana gedərək Ulu Öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.**

Sonra respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş Vətən övladlarının uyuduğu Şəhidlər xiyabanı ziyarət olunub.

Həmin gün Daxili Qoşunların Baş İdarəsində təntənəli mərasim keçirilib. Tədbirdə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların, eləcə də bütün şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Əlamətdar gün münasibətilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğu prosesində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının təkmilləşməsinə böyük önəm verdiyini, məhz onun xüsusi diqqət və qayğısı ilə formalaşıb inkişaf etdiyini məmnunluqla diqqətə çatdırıb.

Nazir Daxili Qoşunların qarşıya qoyulan döyüş tapşırığını yüksək keyfiyyətlə yerinə yetirməklə, Müzəffər Ali Baş Komandanın əmri ilə Vətən müharibəsi zamanı və ötən il keçirilən lokal antiterror tədbirlərində hərbi qulluqçularımızın fədakarlıq göstərdiklərini qeyd edib.

Daxili Qoşunların inkişafı üçün qəbul edilən qərarların, cənab Prezidentin imzaladığı müvafiq sərəncamları ilə bir qrup hərbi qulluqçunun dövlət mükafatları ilə təltif olunmasının şəxsi heyət tərəfindən minnətdarlıqla və ruh yüksəkliyi ilə qarşılandığını vurğulayan nazir V.Eyvazov onu da qeyd edib ki, məhz Ali Baş Komandanın əvəzsiz dəstəyi sayəsində Daxili Qoşunların maddi-texniki bazasının, kazarma-yaşayış fondunun yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, zəruri olan vasitələrlə təchiz edilib.

Bu gün işğaldan azad olunmuş ərazilərdə polis əməkdaşları ilə birgə Daxili Qoşunların hərbi qulluqçularının peşəkar xidmətini vurğulayan nazir Vilayət Eyvazov daxili işlər orqanlarının şəxsi heyətinin vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarıqlarını əsirgəməyəcəklərinə, asayişin keşiyində qətiyyətlə dayanacaqlarına əminliyini ifadə edib.

Daxili işlər nazirinin müavini-daxili qoşunlar komandanı general-leytenant Şahin Məmmədov qurumun yaranması, inkişafı və fəaliyyəti barədə məruzə ilə çıxış edib.

Tədbirə yekun vuran nazir V.Eyvazov Daxili Qoşunların qarşıda duran başlıca vəzifələrini qeyd edərək tapşırıq və tövsiyələrini verib.

Sonra xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunun təltif edilməsi barədə daxili işlər nazirinin və nazir müavini - daxili qoşunların komandanının imzaladıqları əmrlər elan olunaraq mükafatlar sahiblərinə təqdim edilib.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## Bakıda Azərbaycan-Xorvatiya biznes forumu keçirilib

**Bakıda İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO və Xorvatiya İqtisadiyyat Palatasının birgə təşkilatçılığı ilə Bakıda Azərbaycan-Xorvatiya biznes forumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən mədəniyyət nazirinin müavini Fərid Cəfərov Azərbaycan ilə Xorvatiya arasında siyasi əlaqələrin dostluq və ortaq maraqlar əsasında inkişaf etdiyini vurğulayaraq, bu münasibətlərin iqtisadi müstəvidə də əks olunması üçün sahibkarlar arasında əlaqələrin qurulmasının və bu istiqamətdə proseslərin intensivləşdirilməsinin vacibliyini ifadə edib. Nazir müavini forumun qarşılıqlı investisiyaların təşviqi sahəsində irəliləyişin əldə olunmasına müsbət təsir göstərəcəyini bildirib.

Xorvatiyanın Azərbaycandakı səfiri Branko Zebiç və Azərbaycanın Xorvatiyadakı səfiri Anar İmanov ticarət və investisiyalar, o cümlədən kənd təsərrüfatı və energetika sahələrində iki ölkə arasında müxtəlif istiqamətlər üzrə potensialın mövcud olduğunu qeyd ediblər. Bildirilib ki, müxtəlif formatlarda keçirilən görüşlər və tədbirlər işgüzar dairələr arasında əməkdaşlığın möhkəmlənməsinə böyük töhfə verəcək.

Forumda ölkələr arasında ticarət və investisiya tərəfdaşlığının inkişafı imkanlarına dair müzakirələr aparılıb, sahibkarlar arasında ikitərəfli görüşlər keçirilib.

Tədbirdə dövlət rəsmiləri ilə yanaşı, qida sənayesi, tikinti, ticarət, energetika sahələrində fəaliyyət göstərən 40-dan çox şirkət nümayəndəsi iştirak edib.

Qeyd edək ki, tədbirdə AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov və Xorvatiya İqtisadiyyat Palatasının Biznesin Beynəlmiləlləşməsi Mərkəzinin direktoru Silva Stipiç Kobal ölkələrin biznes və investisiya potensialı, eləcə də mümkün əməkdaşlıq istiqamətləri haqqında danışıb, fikir mübadiləsi aparıblar.

Forum B2B formatda görüşlər ilə davam edib.



# Azərbaycan və Qazaxıstan enerji sahəsində də birgə addımlayır

*Əvvəli 1-ci səh.*

Elə bu yaxınlarda Azərbaycanın energetika naziri Pərviz Şahbazovun Qazaxıstana səfəri çərçivəsində həmin ölkənin energetika naziri Almasadam Satkaliyev ilə görüşü zamanı da enerji sahəsində əməkdaşlığın xüsusi rolu qeyd edilib. O cümlədən Qazaxıstan neftinin Azərbaycandan keçməklə çoxistiqamətli tranziti üzrə praktiki addımlar atılması, bu xüsusda BTC kəməri ilə illik 1,5 milyon ton neftin nəqli ilə bağlı razılaşmanın həyata keçirilməsi, tədarük həcminin tədricən artırılması istiqamətində SOCAR və "KazMunayQaz" arasında əməkdaşlıq yüksək qiymətləndirilib.

Enerji əlaqələrinin karbohidrogen sektoru ilə yanaşı, bərpaolunan enerji üzrə genişləndirilməsinin Hökumətlərarası Komissiyanın fəaliyyətində prioritet istiqamətlərdən olduğu bildirilib. Azərbaycanın və Qazaxıstanın energetika nazirlikləri arasında enerji sahəsində strateji tərəfdaşlığa dair saziş layihəsinin hazırlanması ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparılıb.

Bu günlərdə Bakıda Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəfin və Qazaxıstanın "KazMunayQaz" Milli Şirkətinin İdarə Heyətinin sədri Maqzum Mirzaqaliyevin də görüşü olub. Azərbaycanla Qazaxıstan arasında əlaqələrin bütün sahələrlə yanaşı, enerji sektorunda da uğurla inkişaf etdiyi məmnunluqla vurğulanıb. Bu xüsusda SOCAR ilə "KazMunayQaz" arasında ötən il imzalanan yol xəritəsinin əlaqələrin genişləndirilməsi üçün geniş imkanlar yaratdığı diqqətə çatdırılıb.

Tərəflər qarşılıqlı səmərəli əməkdaşlıq münasibətlərinin genişləndirilməsi imkanlarını nəzərdən keçirib, neftin emalı, tranziti, ticarəti sahələrinə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıblar.

Martın 11-də isə Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə SOCAR-la "KazMunayQaz" iki mühüm sənəd imzalayıblar. Bunlar Qazaxıstan neftinin alqı-satqısı sahəsində strateji əməkdaşlıq haqqında memorandum və Qazaxıstan neftinin ölkəmizin ərazisindən tranzit edilən həcmlərinin mərhələli artırılması haqqında sazişdir.

Təsadüfi deyil ki, bütün bu məsələlər Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfərindən öncə "Azərbaycan" qəzetinə müsahibəsində, eləcə də səfər zamanı keçirilən görüşlərdə və mətbuata verilən bəyanatlarda geniş yer alıb. O cümlədən əməkdaşlıqda prioritet olan sahələr sırasında Xəzərin dibi ilə fiber-optik rabitə xəttinin və enerji kabelinin çəkilməsi, Azərbaycan vasitəsilə neft və uranın ixracı da qeyd edilib.

Xatırladaq ki, 2022-ci il dekabrın 17-də Buxarestdə Prezident İlham Əliyevin iştirakı ilə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Bu, elektrik enerjisinin Azərbaycandan keçməklə Mərkəzi Asiya ölkələrindən Avropaya nəqli üçün də imkan yaradır.

Hələ keçən ilin noyabr ayında Bakıda, İqtisadiyyat Nazirliyində keçirilən üçtərəfli (Azərbaycan, Özbəkistan, Qazaxıstan) görüşdə Mərkəzi Asiya ölkələrindən Azərbaycan ərazisi ilə Avropaya elektrik enerjisinin ixracı perspektivləri müzakirə olunmuşdu. Tərəflər Azərbaycanın region ölkələrinin enerji sisteminin gələcək inkişafı üzrə səylərin koordinasiyası və sinxronlaşdırılması ilə bağlı təşəbbüsünü, eləcə də təmiz elektrik enerjisinin üçüncü ölkələrin bazarlarına təchizatı istiqamətində qarşılıqlı səylərini təqdir etmişlər. Nazirlər ölkələrin bərpaolunan enerji üzrə potensialını qeyd edərək, alternativ mənbələrdən alınan elektrik enerjisinin Avropaya ixracı ilə bağlı layihəyə qoşulmağa hazır olduqlarını bildirmişlər və görüşün nəticəsi kimi birgə kommünike imzalanmışdı. Birgə Kommünikedə bərpaolunan enerji mənbələrinə fokuslanan enerji mübadiləsi, "yaşıl hidrogen" və "yaşıl ammonyak"ın inkişafı və ixracı, müvafiq infrastrukturun yaradılması sahəsində əməkdaşlıq kimi məsələlər əks olunmuşdur. Sənədə əsasən, tərəflər elektrik enerjisinin ixracı ilə bağlı birgə müəssisənin yaradılması və layihənin iqtisadi əsaslandırılmasına hazırlıqla bağlı razılığa gəlmişlər.

Bu gün bütün sivil dünya iqtisadiyyatın dərindən karbonsuzlaşdırılması məqsədinə doğru irəliləyir və bu baxımdan Qazaxıstan da istisna deyil. Ölkə həmin sahədə öz qarşısında mühüm hədəflər qoyub və bu da onun "yaşıl enerji" potensialının böyük olması ilə bağlıdır. Söhbət ildə 1 milyard GVt/saat enerjidən gedir. Bununla əlaqədar olaraq, dünyanın tanınmış şirkətləri Qazaxıstanda investisiya yatırmağa böyük maraq göstərirlər. Yeri gəlmişkən, onu da qeyd edək ki, Azərbaycanda "yaşıl enerji" layihələrinə sərmayə qoyan Səudiyyə Ərəbistanının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" kimi aparıcı şirkətləri Qazaxıstanın bərpaolunan enerji layihələrinin həyata keçirilməsində də strateji rol oynayırlar.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev "Azərbaycan" qəzetinə müsahibəsində ölkələrimiz arasında "yaşıl enerji" əməkdaşlığının perspektivinə toxunaraq deyib: "Qazaxıstanın nəhəng bərpaolunan enerji potensialını nəzərə alaraq, biz Azərbaycanın region ölkələrinin enerji sistemlərinin gələcək inkişafının səylərini, enerji sistemlərinin davamlı qarşılıqlı əlaqəsi də daxil olmaqla, əlaqələndirmək və sinxronlaşdırmaq təşəbbüsünü alqışlayırıq. Ötən ilin noyabrında Bakıda Azərbaycan, Qazaxıstan və Özbəkistanın iqtisadiyyat və energetika nazirləri Qazaxıstan və Özbəkistandan Azərbaycan ərazisi ilə Avropaya elektrik enerjisinin ixracı perspektivlərini müzakirə ediblər. Həmçinin "yaşıl energetika" sahəsində layihələrin inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb. Görüşün yekununda ölkələrimiz Avropaya elektrik enerjisi ixracı üzrə birgə müəssisənin yaradılması və layihənin iqtisadi əsaslandırılmasının hazırlanması barədə razılığa gəliblər. Beləliklə, Qara dəniz və Xəzərdə həyata keçirilən layihələr tezliklə birləşəcək ki, bu da ölkələrimizin elektrik enerjisi təchizatçısı kimi mövqelərini gücləndirəcək".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Münasibətlərdə yeni keyfiyyət mərhələsi başlayır

## Azərbaycan-Qazaxıstan əlaqələri böyük coğrafiyada əməkdaşlıq sisteminin qurulmasını şərtləndirir

**"Azərbaycan-Qazaxıstan münasibətləri öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Bunu şərtləndirən bir sıra amillər var. Birincisi, Azərbaycan öz ərazilərini Ermənistanın işğalından azad etdikdən və bütün əraziləri boyunca suverenliyini təmin etdikdən sonra tam yeni obrazda beynəlxalq münasibətlər və əməkdaşlıq sistemində iştirak edir. Bu, Azərbaycan-Qazaxıstan münasibətlərində də özünü göstərir".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. Deputat bildirib ki, digər amillərdən biri eyni soy-kökə, mədəni dəyərlərə, oxşar tarixə malik olmaqla Azərbaycan-qazax xalqları öz aralarındakı münasibətləri daha dinamik və səmərəli inkişaf etdirmək imkanlarına malikdirlər.

Nəzərə almaq lazımdır ki, Prezident İlham Əliyev son illərdə xarici siyasətin Orta Asiya vektoruna daha çox diqqət ayırır. Bunun da böyük strateji əhəmiyyəti var, çünki Cənubi Qafqaz ilə Orta Asiya və Avropa arasında qitələrarası kommunikasiyanın təmin olunmasında, müvafiq olaraq iqtisadi əməkdaşlığın inkişafında bu, təsirli rola malikdir. Azərbaycan Cənubi Qafqazın lokomativ dövlətidir. Qazaxıstan da Orta Asiyada kifayət qədər böyük resurslara malikdir. Ona görə də iki dövlətin münasibətləri regionlararası əlaqələri və iqtisadi əməkdaşlıq səviyyəsini müəyyən edən amil kimi qiymətləndirilməlidir.

Deputat qeyd edib ki, Azərbaycan-Qazaxıstan münasibətlərində iqtisadi əməkdaşlıqdakı dinamizm hər iki tərəf arasında əlaqələrin əhəmiyyətli olduğunu aydın şəkildə göstərir. "Bunun üçün hər iki dövlət bütün səylərini səfərbər edib. Bunun nəticəsi artıq göz önündədir. Belə ki, 2020-ci ildə Azərbaycan və Qazaxıstan arasında ticarət dövriyyəsi təxminən 109 milyon dollar təşkil edirdisə, bu gün 520 milyon dolları ötüb. Bu göstəricinin yüksələcəyi haqqında nikbin proqnozlar vermək mümkündür. Bundan başqa, Qazaxıstan sərmayəli şirkətlər Azərbaycanda kifayət qədər fəallıq nümayiş etdirirlər. Azərbaycan şirkətləri də Qazaxıstana investisiyalar yönləndirirlər. Demək olar ki, həyat fəaliyyətinin bütün sahələri üzrə iki ölkə arasında əməkdaşlıq mövcuddur. Sözsüz ki, yeni əməkdaşlıq imkanları hər zaman var və həm Azərbaycan, həm də Qazaxıstan mövcud imkanları genişləndirməklə yanaşı, yeni sahələrin tapılmasında maraqlıdırlar", - deyə o əlavə edib.

Qazaxıstanın xüsusilə energetika, nəqliyyat-logistika sahəsində Azərbaycanla əməkdaşlığa böyük önəm verdiyini deyən E.Mirbəşiroğlu bildirib ki, bu ölkənin xam nefti Bakı-Tbilisi-Ceyhan boru xətti vasitəsilə Avropa bazarlarına çatdırılır. Yaxın gələcəkdə Bakı-Supsa neft kəməri vasitəsilə də neftin nəqli nəzərdə tutulur ki, bu istiqamətdə də müzakirələr aparılır. Qazaxıstan tərəfinin hər zaman mövqeyi odur ki, Azərbaycan unikal nəqliyyat-logistika imkanlarına və iki dövlət bu sahədə tərəflərin maraqlarına cavab verən, olduqca səmərəli əməkdaşlıq imkanlarına malikdirlər. Azərbaycan və Qazaxıstan Trans-Xəzər nəqliyyat dəhlizinin tam işlək vəziyyətdə olmasında qərarlıdırlar. Tərəflər öz ərazilərində bu dəhlizin vacib seqmentlərinin yaradılması istiqamətində ciddi işlər görüblər və bunu davam etdirirlər. Zəngəzur dəhlizi açılan zaman bu yol həm Trans-Xəzər, həm "Şimal-Cənub" marşrutlarının, həm də tarixi İpək yolunun olduqca strateji əhəmiyyətli seqmentinə çevriləcək. Göründüyü kimi, iki ölkənin əlaqələri böyük coğrafiyada əməkdaşlıq sisteminin qurulmasını şərtləndirir. Bu da geosiyasi vəziyyətə çox ciddi təsir göstərəcək, çünki bu gün dövlətlərin qarşısında duran əsas çağırışlardan biri də təhlükəsizliklə bağlıdır.

Azərbaycan-Qazaxıstan əməkdaşlığının yeni istiqamətinin müdafiə və təhlükəsizlik sahəsi olduğunu bildirən deputat xatırladıb ki, Prezident İlham Əliyev Qazaxıstanda səfərdə olarkən əsas müzakirə predmetlərindən biri məhz bu məsələlərlə bağlı olub: "Dövlət başçımız Türk Dövlətləri Təşkilatı çərçivəsində də müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulamışdı. Azərbaycan Qazaxıstanla birgə türkdilli dövlətlərin olduğu 6 təşkilata üzvdür. Bu platformalar çərçivəsində ölkələrimiz qarşılıqlı anlayış şəraitində, bir-birlərinin maraqlarına həssaslıqla yanaşaraq səmərəli əməkdaşlığı davam etdirirlər. Bu, Azərbaycan-Qazaxıstan münasibətlərinin xarakterini göstərən vacib göstəricilərdəndir.

Bu, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin ölkəmizə sayca ikinci səfəridir. Birinci səfəri zamanı Füzulidə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin təməli qoyulmuşdu, bu səfər çərçivəsində isə açılışı oldu. Tokayevin ilk səfəri zamanı Azərbaycanla Qazaxıstan arasında 40 sənəd imzalanmışdı ki, bunlar müxtəlif istiqamətlərdə əməkdaşlığın inkişafını nəzərdə tuturdu. Bu dəfə də mühüm sazişlər imzalandı".

E.Mirbəşiroğlu vurğulayıb ki, ümumiyyətlə, Azərbaycanla Qazaxıstan arasında əməkdaşlıqla bağlı 150-dən artıq sənəd imzalanıb. Bu da onu göstərir ki, iki ölkə arasında əlaqələr olduqca dinamik inkişaf edir.

Deputat hesab edir ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin ölkəmizə səfəri iki dövlət arasında münasibətlərin yeni keyfiyyət mərhələsini yaradacaq. Azərbaycan-Qazaxıstan münasibətləri strateji tərəfdaşlıq xarakterini getdikcə müttəfiqlik xarakterinə dəyişəcək. Bu baxımdan iki ölkənin səmərəli əməkdaşlığı, yerləşdikləri strateji əhəmiyyətli coğrafiyalar həm geosiyasi vəziyyətə, həm iqtisadi inkişafa, həm də təhlükəsizlik mühitinə ciddi təsir edən faktorlardır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Orta dəhlizin iki əsas ölkəsi

## *Kasım-Jomart TOKAYEV:* "Bu səbəbdən Astana ilə Bakı kompleks addımlar atır"




**Xəbər verildiyi kimi, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ölkəmizə səfəri ərəfəsində "Azərbaycan" qəzetinə müsahibə vermişdir.**

Dost dövlətin başçısı müsahibəsində iki ölkə, eləcə də dünya üçün xüsusi əhəmiyyət daşıyan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta dəhliz) əhəmiyyətindən danışmışdır: "Yeni geosiyasi reallıqlar kontekstində transkontinental ticarətin təşviqində və inkişafında ölkələrimizin rolu sürətlə artır. Hətta xəritəyə ötəri nəzər salmaq belə Mərkəzi Asiya və Cənubi Qafqazın unikal coğrafi mövqeyindən xəbər verir. Bu səbəbdən Qazaxıstan da Azərbaycan kimi ölkənin logistika və nəqliyyat potensialının gücləndirilməsi istiqamətində aktiv siyasət yürüdür. Bunun bizim qarşımızda dayanan strateji əhəmiyyətli vəzifə olmasını gizlətmirəm. 2030-cu ilə qədər 11 min km dəmir yolu xətti təmir etmək və 5 min km-dən çox yeni dəmir yolu çəkmək niyyətindəyik. Bu, ölkənin nəqliyyat imkanlarını xeyli artıracaq. Orta dəhliz kimi də adlandırılan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun transkontinental ticarətin təşviqində və inkişafında rolu bu gün sürətlə artıb. Bunu həmin marşrut üzrə yükdaşımaların həcminin 2022-ci ildə iki dəfə artaraq 1,7 milyon ton, 2023-cü ildə isə əlavə 65 faiz artaraq 2,7 milyon tona çatması sübuta yetirir. Gələcəkdə bu həcmin ildə 10 milyon tona çatacağını gözləyirik. Bunun üçün həm tələbat, həm də texnoloji imkanlar mövcuddur. Bu səbəbdən Astana ilə Bakı bu sahədə kompleks addımlar atır. Bunun bariz nümunəsi 2022-ci ilin sonlarında Aktauda imzalanan Azərbaycan, Qazaxıstan, Türkiyə ərazilərində "Orta dəhlizin inkişafı üzrə 2022-2027-ci illəri əhatə edən Yol Xəritəsi"dir.

Qazaxıstan Prezidenti həmçinin vurğulamışdır ki, Xəzər sahillərindəki dəniz limanlarımızın genişmiqyaslı müasirləşdirilməsinə xüsusi diqqət yetiriləcək: "Bundan əlavə, Qazaxıstan, Azərbaycan və Gürcüstan dəmiryolçuları tərəfindən yükdaşımaların həcmini artırmaq üçün "bir pəncərə" formatında xidmət göstərəcək "Middle Corridor Multimodal Ltd" birgə müəssisəsi yaradılıb. Marşrut boyunca ən son rəqəmsal texnologiyalardan istifadə olunacaq. Bunun üçün biz kəsintisiz rəqəmsal dəhliz hazırlamış transmilli PSA Sinqapur şirkətini cəlb etdik. Biz dəmir yolu nəqliyyatı sahəsində innovativ həllərin tətbiqi üçün "Huawei", "Wabtec", "Alstom" kimi qlobal şirkətlərlə fəal əməkdaşlıq edirik. Onlar bu sahəni daha rəqabətli və səmərəli edəcəklər. Marşrutun gələcək inkişafı və onun digər nəqliyyat dəhlizləri ilə əlaqəsi də perspektivli hesab olunur ki, bu da Cənubi Qafqazla Türkiyənin Qazaxıstan, Mərkəzi Asiya ölkələri, Avrasiya İqtisadi Birliyi (AİB) və Çinlə daha geniş transregional inteqrasiyası üçün əlavə imkanlar təmin edəcək. Ümumiyyətlə, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu böyük potensiala malikdir və təbii ki, bu mühüm layihənin həyata keçirilməsində Qazaxıstanla Azərbaycanın rolu olduqca böyükdür. Bu arteriyanın inkişafı ticarət dinamikasının genişlənməsinə töhfə verməklə yanaşı, Şərqlə Qərb arasında əlaqələndirici körpü kimi ölkələrimizin mövqeyini möhkəmləndirəcək".

Cənab Kasım-Jomart Tokayevin də dediyi kimi, Azərbaycan və Qazaxıstan Orta dəhlizin önəmli ölkələrindən sayılır. Xüsusilə Zəngəzur dəhlizinin açılması Çinin Avropa və Türkiyə üzərindən Asiya, həmçinin Şimali Afrika ölkələri ilə ticarət əlaqələrini genişləndirməsinə daha böyük imkanlar yaradacaq. Belə ki, ilkin hesablamalara görə, Zəngəzur dəhlizi Orta dəhlizin daşınma qabiliyyətini ildə 8-10 milyon tona qədər artırmağa imkan verə bilər.

Onu da vurğulayaq ki, görülən tədbirlər sayəsində son iki ayda Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə Çindən 13 blok qatarı göndərilib və bunun nəticəsində həmin konteynerlərin Gürcüstan limanlarına çatması cəmi 12 gün çəkib. Məlumat üçün bildirək ki, əvvəllər bu müddət təxminən 40-50 gün idi.

Xatırladaq ki, Orta dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa da qoşulub. Hazırda marşrut Çin-Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur.

Görülən işlər öz müsbət bəhrəsini verir, ticarət tərəfdaşlarımızın bu marşruta olan güvəni daha da artır. Bunun sayəsində Orta dəhliz üzərindən yükdaşımanın dinamikası yüksələn xətlə davam edir. Təkcə ötən il Orta dəhliz vasitəsilə 2 milyon 750 min ton yük daşınıb ki, bu da 2022-ci illə müqayisədə 64 faiz çoxdur.

Prezident İlham Əliyev andiçmə mərasimində ölkəmizin Orta dəhlizin fəaliyyət göstərməsi üçün gördüyü işləri yüksək qiymətləndirərək demişdir: "Təbii ki, biz nəqliyyat sahəsində işləri davam etdirəcəyik. Bu gün Azərbaycan dünya miqyasında nəqliyyat mərkəzi kimi qəbul edilir. Bizə həm Qərbdən, həm Şərqdən, həm Şimaldan, həm Cənubdan müraciətlər daxil olur. Azərbaycan ərazisində bütün nəqliyyat infrastrukturu işlək vəziyyətdədir. Sadəcə olaraq bəzi dəmir yollarında modernləşdirmə işləri aparılmalıdır və biz bunu da edirik. Dünyadakı geosiyasi vəziyyətin yaxın gələcəkdə dəyişməsi, yəqin ki, mümkün deyil. Belə olan halda bizim nəqliyyat infrastrukturumuza olan ehtiyac daha da artacaq. Bizim üstünlüyümüz ondan ibarətdir ki, biz vaxtilə bütün lazımi infrastruktur layihələrini icra etmişik, həm Xəzər dənizində, həm dəmir yolu infrastrukturunda, həm avtomobil yolları, həm dəniz limanı, gəmiqayırma zavodu, hansı ki, bu gün tam gücü ilə işləyir. İlk dəfə olaraq, o zavod işə salınanda sifarişlər onu 100 faiz işlə təmin edib".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 130

## QƏRAR

Bakı şəhəri, 9 mart 2024-cü il

### “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun tətbiqi və "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2235 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 13 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 15-ci hissəsindən ", Azərbaycan Milli Elmlər Akademiyasında magistratura səviyyəsinə" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 467 (Cild I) ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.3-cü bənddən "və Azərbaycan Milli Elmlər Akademiyasına (bundan sonra - "AMEA")" sözləri çıxarılsın;

2.2. 1.4-cü, 2.2-ci bəndlərdən, 2.13-cü bəndin birinci cümləsindən və 4.4-cü bənddən "və AMEA-da" sözləri çıxarılsın;

2.3. 1.7-ci bəndin birinci abzasından "və AMEA-da" sözləri, ikinci abzasının birinci cümləsindən isə ", həmçinin AMEA-da" sözləri çıxarılsın;

2.4. 1.9-cu bənddən, 2.3-cü bəndin ikinci abzasının ikinci cümləsindən, üçüncü abzasından (hər dörd halda) və 3.2-ci bəndin ikinci cümləsindən "və AMEA" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 9, maddə 833 (Cild I) ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nın 1.2-ci bəndi ləğv edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 8, maddə 820 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 16 nömrəli və 8 fevral tarixli 77 nömrəli qərarları) ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"nin "Ümumi müddəa" bölməsinin ikinci abzası ləğv edilsin.

5. "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1638 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. adından və ikinci abzasdan "və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın;

5.2. həmin Qərarla təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları" üzrə:

5.2.1. adından "və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın;

5.2.2. 1.2-ci bəndin birinci cümləsindən "və Azərbaycan Milli Elmlər Akademiyasına (bundan sonra - AMEA)" sözləri çıxarılsın;

5.2.3. 1.3.2-ci və 2.1.13-cü yarımbəndlərdən "və AMEA-nın" sözləri çıxarılsın;

5.2.4. 1.4-cü bənddən, 3.2.11-ci yarımbəndin dördüncü cümləsindən, 3.2.12-ci və 3.2.19-cu yarımbəndlərdən, 3.2.21-ci yarımbəndin ikinci cümləsindən, 3.3.2-ci, 3.3.4-cü, 3.4.1.2-ci yarımbəndlərdən, 3.4.2-ci yarımbəndin birinci cümləsindən, 3.4.11-ci yarımbənddən, 3.4.12-ci yarımbəndin dördüncü cümləsindən və 3.4.14-cü yarımbənddən "və AMEA" sözləri çıxarılsın;

5.2.5. 1.5-ci, 4.4-cü və 5.1-ci bəndlərdən, 2.1.8-ci, 2.1.9-cu, 2.1.15-ci, 3.1.1-ci və 3.4.9-cu yarımbəndlərdən "və AMEA-da" sözləri çıxarılsın;

5.2.6. 1.7-ci bənddən "və AMEA-ya" və "və AMEA" sözləri çıxarılsın;

5.2.7. 3.2.10-cu yarımbənddən "və AMEA" və "və AMEA-nın" sözləri çıxarılsın;

5.2.8. 3.2.15-ci yarımbəndin birinci cümləsindən "və AMEA-nı" sözləri çıxarılsın;

5.2.9. 3.3.1-ci yarımbəndin birinci cümləsindən "və AMEA-nın magistratura səviyyəsinə" və "və AMEA-nın Elm və Təhsil İdarəsi" sözləri, üçüncü cümləsindən "və ya AMEA-nın Elm və Təhsil İdarəsi" sözləri çıxarılsın;

5.2.10. 3.3.3-cü yarımbəndin birinci cümləsindən "və AMEA-da" və "və ya AMEA" sözləri çıxarılsın;

5.2.11. 3.4.1.4-cü yarımbənddən "tələbələri və AMEA-nın magistratura səviyyəsinin tələbələrinə, həmçinin AMEA-nın təklif etdiyi ayrı-ayrı fənlər üzrə ali təhsil müəssisələrinin magistratura səviyyəsinin" sözləri çıxarılsın;

5.2.12. 3.4.6-cı yarımbənddən "və ya AMEA-nın Elm və Təhsil İdarəsi" sözləri çıxarılsın;

5.2.13. 3.4.13-cü yarımbənddən "və AMEA-nın prezidentinin" sözləri çıxarılsın;

5.2.14. 4.5-ci bənddən "və AMEA-dan" sözləri çıxarılsın;

5.2.15. 6.1-ci bənd üzrə:

5.2.15.1. birinci və beşinci cümlələrdən "və AMEA-da" sözləri çıxarılsın;

5.2.15.2. ikinci cümlədən "və AMEA-nın" sözləri çıxarılsın;

5.2.15.3. üçüncü və dördüncü cümlələrdən "və AMEA" sözləri çıxarılsın;

5.2.16. 6.3-cü bənddə "həm ali təhsil müəssisələri arasında, həm də ali təhsil müəssisələri ilə AMEA" sözləri "ali təhsil müəssisələri" sözləri ilə əvəz edilsin.

6. "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 38 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 380 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

6.1. adından və 1-ci hissədən ", həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin" sözləri çıxarılsın;

6.2. preambuladan ", həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə tələbələrinə təqaüdlərin verilməsi" sözləri çıxarılsın;

6.3. həmin Qərarla təsdiq edilmiş "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası" üzrə:

6.3.1. adından, 1.3-cü və 2.1-ci bəndlərdən ", həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin" sözləri çıxarılsın;

6.3.2. 1.1-ci bənddən ", həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə tələbələrinə təqaüdlərin verilməsi" və ", həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin" sözləri çıxarılsın;

6.3.3. 1.4-cü bənddən (hər iki halda) "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri çıxarılsın;

6.3.4. 1.6-cı bənddən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasından" sözləri çıxarılsın;

6.3.5. 1.7-ci bəndə "təcrübəsi" sözündən sonra "və ya ixtisas üzrə təcrübə" sözləri əlavə edilsin;

6.3.6. 1.9-cu bəndin birinci cümləsindən ", həmçinin magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın;

6.3.7. 1.11-ci bəndin birinci cümləsindən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri, ikinci cümləsindən isə "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasının müvafiq elmi müəssisə və təşkilatının Elmi Şurası" sözləri çıxarılsın;

6.3.8. 2.4-cü bəndin birinci cümləsindən ", həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri, ikinci cümləsindən isə ", həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinə" sözləri çıxarılsın;

6.3.9. 2.5-ci bəndin birinci cümləsindən ", həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinə" sözləri çıxarılsın;

6.3.10. 2.7-ci bənddən "və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinə" sözləri çıxarılsın;

6.3.11. 2.8-ci bənddən "və Azərbaycan Milli Elmlər Akademiyasında isə müvafiq elmi müəssisə və təşkilatın" sözləri çıxarılsın;

6.3.12. 2.14-cü bənddən ", həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində", "və ya magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasına və ya magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasından təhsil müəssisəsinə" sözləri və "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın;

6.3.13. 2.15-ci bənddən "və ya magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasından" sözləri çıxarılsın.

7. "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 40 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 293 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

7.1. adından və 1-ci hissədən "və Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri çıxarılsın;

7.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul Qaydaları" üzrə:

7.2.1. adından "və Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri çıxarılsın;

7.2.2. 1.1-ci bənddən "və Azərbaycan Milli Elmlər Akademiyasının (bundan sonra - elmi təşkilat)" sözləri çıxarılsın;

7.2.3. 1.2-ci bənddən, 2.1-ci bəndin birinci cümləsindən və 6.2-ci bənddən "və elmi təşkilatın" sözləri çıxarılsın;

7.2.4. 1.6-cı bənddən "və elmi təşkilatda" sözləri çıxarılsın;

7.2.5. 6.1-ci bəndin birinci cümləsindən "və ya elmi təşkilata" və ikinci cümləsindən "və ya elmi təşkilatda" sözləri çıxarılsın.

8. "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 17 nömrəli, 8 fevral tarixli 77 nömrəli və 23 fevral tarixli 97 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə"nin "272570. "Tələbələrə verilən təqaüdlər" maddəsindən ", həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə tələbələrə" sözləri çıxarılsın.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 1 iyun tarixli 217 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 6, maddə 659 (Cild I) ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində xaricdə təhsil alacaq gənclərin seçilməsi meyarları və prosedurları üzrə Qayda"da aşağıdakı dəyişikliklər edilsin:

9.1. 2.2.5-ci yarımbənddən "və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın;

9.2. 2.3.7-ci yarımbənddən ", Azərbaycan Milli Elmlər Akademiyasında magistratura" sözləri çıxarılsın.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Şanlı Qələbəyə həsr edilən kitab Çin dilində nəşr olunub

**"Regional İnkişaf" İctimai Birliyi və Bakı Kitab Mərkəzinin birgə təşkilatçılığı ilə Vətən müharibəsində qazanılan Qələbə və onun tarixinə həsr edilən "Vətən müharibəsi tarixi - Şəxsiyyət faktoru" kitabının 7 dildə nəşri ilə gənclərin tanışlığına həsr edilən tədbir keçirilib.**






Birliyin könüllülərinin, fəal gənclərin, Bakıda təhsil alan çinli tələbələrin, müharibə veteranlarının, qazilərin, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə kitabın Çin dilindəki nəşri təqdim edilib.

Tədbirin əvvəlində 44 günlük savaşda qazanılan Qələbəyə və kitabın ərsəyə gəlməsinə həsr edilən videoçarxın nümayişi olub.

Tədbir iştirakçılarını salamlayan Bakı Kitab Mərkəzinin direktoru Günel Anar qızı kitabla bağlı təəssüratlarını bölüşərək bildirib ki, hər zaman verdiyi sözə əməl edən Prezident İlham Əliyev xalqına hansı vədi verdisə, onu yerinə yetirib. Odur ki, gənclər də cənab Prezidentin dediyi hər sözə sona kimi inanmalı və hər zaman ona dəstək olmalıdır.

Bakı Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Elmin İmanov bildirib ki, Azərbaycan tarixində konkret bir tarixi hadisə haqqında yazılan kitab qısa zaman kəsiyində 7 dildə çap edilən ilk nəşrdir. Onun xüsusi əhəmiyyəti isə hadisələrin məhz hadisə iştirakçılarının dilindən nəql olunmasıdır. Kitabda Şanlı Qələbənin əldə olunmasının ölkə başçısı İlham Əliyevin dahi intellekti və müdrik sərkərdəlik qabiliyyəti sayəsində mümkün olduğu xüsusi vurğulanıb.

Gənclərin müzakirəsinə çıxarılan kitab nəinki ölkəmizdə, eyni zamanda xaricdə oxucu və ekspertlərin böyük marağına səbəb olduğundan Azərbaycan, türk, ingilis, rus, ərəb, fars və çin dillərində nəşr edilib. Hazırda kitabın urdu dilində tərcüməsi üzərində işlər davam edir.

Tədbirdə çıxış edən "Regional İnkişaf" İctimai Birliyin nümayəndəsi Murad Qasımlı, Vətən müharibəsi qazisi Qadir Daşdəmirov, çinli tələbə Zhikai Cao və başqaları bildiriblər ki, kitabda Azərbaycanın Birinci Qarabağ müharibəsində məğlubiyyətinin səbəbləri və ölkənin öz torpaqlarını işğaldan azad etmə istiqamətində həyata keçirdiyi işlərin geniş təhlili verilib. Kitabda həmçinin Heydər Əliyev Fondu və onun rəhbəri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mədəni-tarixi irsin bərpası istiqamətində aparılan genişmiqyaslı işlər də oxucunun diqqətinə çatdırılır.

Gənclərin böyük marağına səbəb olan tədbirin sonunda bədii hissə təqdim edilib.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# *"Euronews":* "Azərbaycanda energetika sahəsində qarşılıqlı əməkdaşlıq və "yaşıl enerji"yə keçid müzakirə edilib"

**Məşhur "Euronews" telekanalı Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarından geniş reportaj hazırlayıb.**

AZƏRTAC xəbər verir ki, reportajda Azərbaycanın Şərqi Avropa ilə Qərbi Asiyanın qovuşduğu məkan olduğu vurğulanır. Qeyd edilir ki, ölkə əhalisinin sayı 10 milyondan çoxdur. Azərbaycan neft və təbii qaz ehtiyatları ilə zəngin ölkədir.

Reportajın müəllifi Ceyn Uizerspun bildirib ki, bu günlərdə Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları keçirilib. İclaslarda dəhlizin genişləndirilməsi, Aİ və qonşu ölkələr üçün mühüm qaz təchizatının şaxələndirilməsi marşrutu ilə bağlı müzakirələr aparılıb.

Reportajda Prezident İlham Əliyevin iclasdakı çıxışından sitat gətirilir: "Hesab edirəm ki, qazıntı yanacağına malik olan ölkələrin fəaliyyəti onların ətraf mühitin müdafiəsi, "yaşıl enerji"yə keçid məsələlərini necə həll etdikləri baxımından qiymətləndirilməlidir".

Dövlətimizin başçısı bildirib ki, Azərbaycan maliyyə imkanları ilə dəstək göstərmələri üçün aparıcı beynəlxalq maliyyə institutlarını dəvət edərək, ölkələr arasında, şirkətlər arasında bu əməkdaşlığı qurmağa başladı və uzunluğu 3500 kilometr olan kəmər artıq reallıqdır.

Reportajda qeyd edilir ki, ötən il Azərbaycan qaz ixracının həcmini 9 faiz artıraraq 22 milyard kubmetrə çatdırıb. Hazırda Azərbaycan qazının Avropada əsas alıcıları İtaliya, Yunanıstan, Rumıniya, Macarıstan və Bolqarıstandır.

Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simsonun sözlərinə görə, Aİ-də əlavə həcmdə təbii qaz əldə etməyə hazır olan çox sayda yeni tərəfdaş ölkələr var. Lakin bunun üçün bir neçə onillik tələb olunur: "İndi biz həmçinin gələcəyə yönəlmiş əməkdaşlıq qurmaq istəyirik".

"Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarında qarşılıqlı əməkdaşlıq və "yaşıl enerji"yə keçid də müzakirə edilib. Prezident İlham Əliyev "Euronews" televiziyasına bu barədə danışarkən deyib: "Biz bunu ənənəvi ehtiyatlarımız çatışmadığına görə etmirik, ona görə edirik ki, neft-qaz satışından əldə etdiyimiz maliyyədən, gəlirlərdən bərpaolunan enerjiyə sərmayə yatırmaq üçün istifadə etməklə töhfə vermək və buna ehtiyacın olduğuna dair ümumi bir anlayış yaratmaq istəyirik".

Avropa İttifaqı da bu yanaşmanı dəstəkləyir. Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simson bildirib ki, bir neçə il bundan əvvəl Avropa İttifaqı metan emissiyaları ilə bağlı qlobal təşəbbüs irəli sürdü: "Bu, məhz neft-qaz sənayesində ikinci ən güclü istixana qazı olan metan emissiyalarının azaldılması məqsədi daşıyır. Azərbaycan ötən COP-da bu təşəbbüsə qoşuldu. Bu onu göstərir ki, onlar məsuliyyətli şəkildə davranırlar. Bundan əlavə, bütün bu dənizdə yataqların işlənməsi planları ilə birlikdə onlar daxili elektrik enerjisi istehsalını əvəz edə bilərlər".

Reportajda bildirilib ki, Xəzər dənizində külək enerjisi stansiyalarının istifadəsi "yaşıl enerji"yə keçiddə həlledici rol oynayacaq.

"Windeurope" Assosiasiyasının baş icraçı direktoru Cayls Diksonun fikrincə, enerji transsərhəd məsələsidir. "Elə Azərbaycanı götürək. Onlar Xəzər dənizində çox sayda külək enerjisi stansiyası inşa etmək istəyirlər. Onlar bu enerjini özləri istehlak etməyəcəklər. Onlar onu Qafqazdan keçərək Qara dənizin dibi ilə Avropaya çəkiləcək yeni elektrik kabeli vasitəsilə nəql edəcəklər. Bu, beynəlxalq əməkdaşlıqdır. Bu işləri yalnız hökumətlər bir araya gələndə etmək mümkündür və onlar bunu inşa etməyə hazırlaşan sənaye ilə bir araya gəlirlər, - deyə C.Dikson əlavə edib.

Azərbaycan Dövlət Neft Şirkəti - SOCAR artıq az karbonlu həllərin və karbonsuzlaşdırma texnologiyalarının sürətləndirilməsi üzrə strategiyalar həyata keçirir.

SOCAR-ın vitse-prezidenti Əfqan İsayev bu barədə danışarkən deyib: "Biz hamımız başa düşürük ki, neft-qaz sənayesi bizi çox mühüm, dayanıqlı şəkildə etibarlı enerji ilə təmin etməyə davam edəcək və daha təmiz enerji mənbələrinə keçiddə bizə kömək edəcək. Bilirsiniz ki, 2026-cı ildən başlayaraq karbon tənzimləmə mexanizmi çərçivəsində Avropa İttifaqında ixracatçılar və ya idxalçılar cərimələnəcəklər. Gübrələr baxımından da həmçinin. Ona görə də biz gübrə istehsalımızın da karbonsuzlaşdırılması imkanlarını araşdırmaq istərdik".

Bildirilib ki, Azərbaycanın bu il COP29-a evsahibliyi etməyə hazırlaşdığı bir vaxtda Prezident Əliyev iqlim dəyişikliyinin daha geniş fəsadları barədə də danışıb. "Biz iqlim dəyişikliyinin fəsadlarını, təhlükəli fəsadlarını görürük, çaylarımızda su azalır, dağlarımızda qar azalır, Xəzər dənizində suyun səviyyəsi azalır. Əgər biz enerji və əzmlə bu məsələ ilə məşğul olmasaq, hamımız əziyyət çəkəcəyik. Azərbaycanın bərpaolunan enerji layihələri gündəliyi çox iddialıdır", - deyə Prezident İlham Əliyev diqqətə çatdırıb.

Reportajın müəllifi Ceyn Uizerspun sonda vurğulayıb ki, bu, həqiqətən də Azərbaycan və daha geniş qlobal enerji sənayesi üçün iddialı bir plandır.

# "Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti" mövzusunda təlim keçirilib

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) tərəfindən 2024-cü il üzrə təsdiq olunan insan hüquq və azadlıqlarının müdafiəsi və təşviqində səmərəliliyin artırılması ilə bağlı maarifləndirmə ilə bağlı tədbirlər planının icrasına başlanılıb.**

Cəmiyyətdə hüquq mədəniyyətinin, dövlət qurumları və vətəndaş cəmiyyəti institutlarının insan hüquqlarının müdafiəsi və təmini sahəsində məlumatlılığının artırılması istiqamətində tədbirlər planının həyata keçirilməsi məqsədilə Ombudsman Aparatı tərəfindən Bakıda və ölkəmizin regionlarında silsilə maarifləndirmə tədbirlərinin təşkil edilməsi nəzərdə tutulub.

AZƏRTAC xəbər verir ki, tədbirlər planının icrası çərçivəsində ilk təlim Ombudsman Aparatında Elm və Təhsil Nazirliyinin Bakı şəhəri üzrə fəaliyyət göstərən internat tipli ümumi təhsil müəssisələrinin rəhbər heyəti və əməkdaşları üçün "Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti" mövzusunda keçirilib. Təlimə Ombudsmanın şimal, cənub, qərb və şimal-qərb regional mərkəzlərinin və Naxçıvan Ombudsman Aparatının nümayəndələri onlayn olaraq qoşulublar.

Ombudsman Səbinə Əliyeva təlimdə açılış nitqi ilə çıxış edərək, işgəncənin və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması istiqamətində Milli Preventiv Mexanizm mandatı çərçivəsində həyata keçirdiyi fəaliyyət barədə geniş məlumat verib. Bu sahədə məlumatlılığın, hüquqi biliklərin artırılmasının əhəmiyyətindən danışan Səbinə Əliyeva hüquq pozuntuları ilə bağlı vətəndaş müraciətlərinin diqqətlə araşdırıldığını və pozuntu aşkar edildiyi təqdirdə mandatı çərçivəsində təxirəsalınmaz addımların atıldığını qeyd edib.

Bildirilib ki, növbəti təlimlər əlilliyi olan şəxslərin, ahılların, uşaqların, miqrantların və digər həssas əhali qruplarının hüquqlarının müdafiəsi, hüquq bərabərliyinin təmin olunması və ayrı-seçkiliklə mübarizə, habelə informasiya əldə etmək hüququnun müdafiəsi mövzularında keçiriləcək.

Daha sonra Ombudsman Aparatının əməkdaşları mövzu ilə bağlı məruzələrlə çıxış ediblər. Məruzələrdə ölkədə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə, o cümlədən təhsil müəssisələrində rəftar məsələləri və saxlanma şəraitinin araşdırılması məqsədilə müntəzəm olaraq keçirilən başçəkmələr, verilmiş tövsiyələr və onların icrası vəziyyətinə dair məlumatlar iştirakçıların diqqətinə çatdırılıb.

Yekunda mövzu ilə bağlı fikir mübadiləsi aparılıb, tədbir iştirakçılarının sualları cavablandırılıb.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Fransa Cənubi Qafqazda dalana dirənib

### Nə irəli getməyə yolu var, nə də geri dönməyə üzü

**Makronun hakimiyyəti Fransanın xarici siyasəti üçün əsl faciəyə çevrilib. Fransız ordusu Mali və Nigeriyadan çıxır, Makronun telefon zənglərinə cavab verənlərin sayı azalır, Ankaradan Əlcəzairə qədər uzun məsafədə Parislə islam dünyası arasında münaqişə yetişir. Alman kansleri isə Makronla heç nədə razı olmadığını bildirir. Mərakeşdə də heç kim fransızlara sevinmir. Üstəlik Əlcəzairin özəl məktəblərində fransız dilinin tədrisinə qadağa qoyulub.**




Kağız üzərində Fransanın gücü olsa da, reallıqda bu ölkənin heç bir qüvvəsi yoxdur. Makronun səhvləri qalaqlandıqca Fransa daha çox çökür. Bir sözlə, Makron III Napoleon kimi Fransanı məhvə aparır. İş o yerə çatıb ki, Makron artıq hansı ölkənin prezidenti olduğunu da unudub, fransız iqtisadiyyatını başlıbaşına buraxıb, təhlükəli xarici avantüralara baş qoşur.

Daxili siyasətində intriqalara və əsassız qeybətlərə qol-qanad verən bu adam durmadan kadrları və nazirləri dəyişir. Nəticədə inkişaf əvəzinə inflyasiya güclənir, sosial gərginliklər artır. Son nəticədə bütün zərbələr sıravi fransızlara dəyir. Bunlar azmış kimi, Makron güclü iş qabiliyyəti olan komanda yaratmaqda acizdir, həm də aydın dərk edilən fəaliyyət proqramını tərtib etmək iqtidarında deyil. Gülməli odur ki, bütün bunlara baxmayaraq, o, beynəlxalq siyasəti "sahmana salmağa" cumub.

Fransa Prezidentinin Avropa siyasi arenasındakı "uğurlar"ı da rəğbət doğurmur. Əksinə, onun siyasi səhvləri Avropada digərlərinə əlavə üstünlüklər verir. Fransanın iqtisadi çətinliklərinin fonunda Makron Rusiya-Ukrayna müharibəsinə Fransa ordusu ilə qoşulmaq təşəbbüsü irəli sürür.

Bu da hələ onun avantürasının hamısı deyil. Makron Ermənistana da "yardım əli"ni uzadaraq onu silahlarla təchiz etməyə başlayıb. Hələ üstəlik, öhdəsinə götürüb ki, gələcəkdə faydalı əməkdaşlığa üstünlük verəcək.

Amma Ermənistan aldığı silahlarla Azərbaycana qalib gələ biləcəkmi? Çətin ki, bu, mümkün olsun. Əgər Ermənistanla Azərbaycan-Türkiyə tandemi yeni mərhələyə adlayarsa, ermənilərin hərbi maşınları şübhəsiz ki, darmadağın ediləcək. Fransa isə mənasız xərclərdən savayı heç nə əldə edə bilməyəcək, əksinə, nüfuzunu bir az da itirəcək, daxili gərginliklərin fonunda aciz qalacaq. Bacaracağı maksimum o ola bilər ki, Paşinyanın hakimiyyətini yıxıb əvəzinə revanşistləri gətirsin və Rusiya ilə aramsız qanlı çaxnaşmalar yaratsın. Əlbəttə ki, belə halda fransız liderinin təşəbbüslərinin böyük əksəriyyəti məhv olacaq.

Bütün bunlar isə belə qənaətə gəlməyə imkan verir ki, Parisin xarici siyasəti mükəmməllikdən əziyyət çəkir və qüsurlu olduğu üçün xaotik addımlar ona uğur gətirmir. Analitiklər fransız "lideri"nin siyasi portretini III Napoleonla müqayisə edərək belə qərara gəlirlər ki, Makron da onun kimi real xarici siyasi təhlükələri nəzərə almaq iqtidarında deyil. Ümumiyyətlə, Fransada heç kim Makrondan razı deyil. Lyük de Baron yazır ki, Makron analitik səhvlərdən, davamsız qarışıq addımlardan və anlaşılmazlıqlardan əziyyət çəkir. Qısa desək, bütün sahələrdə onun səriştəsizliyi və bacarıqsızlığı hiss olunur.

Fransızların yeni prezident seçilənəcən Makronun bu siyasətinə dözəcəklərini demək çətindir. Bu gün xirtdəyə qədər vergilərlə yüklənən fransızlar elə də səbrli xalq deyil. Nə isə, öz işləridir. İndi isə aydın görünən odur ki, Fransa getdikcə dünyada öz mövqeyini itirir. Artıq bir çoxu üçün o, dördüncü dərəcəli ölkəyə çevrilmişdir. Analitiklər belə hesab edirlər ki, Makron ardıcıl olmadığına görə səhvlərindən əziyyət çəkir. Sadə dillə desək, onun bütün fəaliyyətində qeyri-peşəkarlıq hiss olunur. Qafqazda "cəngavər" kimi görünmək istəyən bu adam artıq süvari yox, piyadadır. Hərçənd Makron hələ də elə fikirləşir ki, Fransa dünya düzənində çox şeyə qadirdir. Reallıqda isə bu dövlət xarici siyasətdə ardıcıl məğlubiyyətlərə düçar olur. Onu Sakit okeandakı "böyük oyun"dan bir qədər sərt tərzdə araladılar, onun "Afrika bostanı"nı isə indi başqaları "əkib-becərir", Avropa İttifaqı və NATO da ondan bir o qədər məmnun deyil.

O ki qaldı Fransanın Ermənistana "böyük bacı"lıq etməsinə, Paris unudub ki, Erməstan Moskvadan çox asılıdır, onu onun əlindən almaq çətin işdir. Başqa sözlə desək, Fransa Cənubi Qafqazda dalana dirənib, nə irəli getməyə yolu var, nə də geri dönməyə üzü.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

## Fransa beynəlxalq hüququn normalarını riyakar maraqlarına görə tapdalayır



**"Bu gün Fransa beynəlxalq hüququn norma və prinsiplərini və bütövlükdə ümumbəşəri dəyərləri riyakar maraqlarının qurbanına çevirib. Afrikadan qovulan Fransa Cənubi Qafqazda möhkəmlənməkdən ötrü revanşist təfəkkürdən qurtulmamış ermənilərdən çirkin planlarını reallaşdırmaq üçün alət kimi istifadə edir. Görünən odur ki, Paris Azərbaycanın hərbi imkanlarının fərqində deyil və ordumuzun Ermənistanın 30 il ərzində qurduğu istehkamları cəmi 44 gün ərzində yerlə yeksan etdiyini unudub".**

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Fazil Mustafa deyib. Deputat bildirib ki, Fransa Ermənistanı silahlandırmaqla həm də Rusiya ilə döyüşməyi təklif edir: "Belə olan halda sual yaranır ki, Fransanın nə qədər böyük qüvvəsi var ki, bu qədər geniş bir zolaqda Ermənistanı dəstəkləyəcək addımlar ata bilsin?! Bundan başqa, Parisin nə qədər silah-sursatı var?! Ermənistana hansı silahlarını göndərəcək?" İrəvanın Parislə bu istiqamətdə əməkdaşlığına gəlincə isə, bu, əslində, bizim xeyrimizədir. Nəzərə almaq lazımdır ki, bu fakt Ermənistanın Fransa əleyhinə olan digər ölkələrlə də münasibətlərini korlamağa gətirib çıxarır. Bu da mövcud gedişatda bizə daha çox sərf edir".

Deputatın dediyinə görə, bütün hallarda Ermənistanın cəhdləri əbəsdir: "İrəvan birbaşa Azərbaycanla normal münasibət qurmağa çalışmalı və problemlərin həlli istiqamətində addımlar atmalıdır. Əks halda, Ermənistanın gələcəyi sual altındadır, ciddi təhlükə ilə üz-üzə qala bilər. Azərbaycan çevrəsində hansısa təcavüzkar bir qonşunun olmasına indi olduğu kimi səbr göstərməyəcək. Çünki bizə sülh və əmin-amanlıq lazımdır və bölgədə sülhü təhdid edən hər hansı bir qüvvənin varlığı bizim üçün müəyyən problemlər yarada bilir. Ona görə də Ermənistan bunu düşünməli və sülhsevər siyasətə üz tutmalıdır".

Fazil Mustafa onu da bildirib ki, Fransa vaxtilə olduğu kimi, yenə də ermənilərdən istifadə etməklə "səlib yürüşü"nə başlayıb: "Əvvəlki ilə müqayisədə əsas fərq ondan ibarətdir ki, yeni "səlib yürüşü" Yaxın Şərqə deyil, Qafqaza yönəlib. Fransada geniş vüsət alan islamofobiya və türkofobiya xüsusilə son dövrlər özünü daha kəskin göstərir. Bu, Fransada erməni lobbisi və diasporunun gündən-günə güclənməsi ilə bağlıdır. Görünür, yarıtmaz Makron hökuməti üçün erməni lobbisinin sözü ilə oturub-durmaq ənənəyə çevrilib".

Deputat yekunda qeyd edib ki, Fransanın qərəzli davranışlarının əsas səbəblərindən biri Azərbaycanın Vətən müharibəsində və ötən il sentyabrın 19-20-də keçirilən antiterror tədbirlərində qələbə qazanması ilə bağlıdır: "Paris Azərbaycanın müstəqil xarici siyasət yürütməsini həzm edə bilmir, nə addım atacağımızla bağlı Fransa ilə məsləhətləşməyimizi istəyir. Xam xəyallara qapılan Fransanın qərəzinin arxasında başqa səbəblər də var. Misal üçün, Fransanın Afrikadakı mövqeyini itirməsi də bu səbəblər arasındadır. Fransanın müstəmləkələrində davam edən etiraz aksiyaları Makron hökumətini məcbur edir ki, onlar Şərqi Avropada, Yaxın Şərqdə və Cənubi Qafqazda möhkəmlənmək üçün ciddi siyasi gedişlər etsinlər. Bu mənada Ermənistandan sui-istifadə etmək Paris üçün ən optimal variantdır".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Ermənistan sülh prosesinin qarşısını almaq üçün separatizmə dəstək verir

### Qondarma rejimi dirçəltmək cəhdi İrəvana yaxşı heç nə vəd etmir

**Azərbaycanın parlaq qələbəsi ilə bitən Vətən müharibəsindən sonra imzalanan 10 noyabr üçtərəfli Bəyanatında kapitulyant Ermənistanın üzərinə götürdüyü öhdəliklərdən biri də silahlı qüvvələrini Azərbaycan ərazisindən çıxarması ilə bağlı idi.**



Ancaq 44 günlük müharibədən ötən müddətdə İrəvan Fransanın başçılıq etdiyi bəzi qərəzli Qərb dairələrinin dəstəyi ilə bu öhdəliyini yerinə yetirməkdən müxtəlif riyakar yollarla yayınırdı. Ermənistan rəhbərliyi Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdığını yüksək tribunalarda, sülh istiqamətində keçirilən üçtərəfli görüşlərdə etiraf etməsinə baxmayaraq, davamlı şəkildə ölkəmizə qarşı siyasi, hərbi təxribatlar törədirdi. Qərbdəki ağalarına güvənən Nikol Paşinyanın ötən ilin sentyabrında Qarabağda qondarma "prezident seçkiləri"nə dəstək göstərməsi isə Bakının səbrini daşıran son damla oldu.

Azərbaycan 2023-cü ilin sentyabrında apardığı cəmi 23 saatlıq antiterror tədbirləri nəticəsində bütün ərazilərində suverenliyini tam bərpa etdi. Bununla həm də 200 illik erməni separatizminə son qoyaraq, Qarabağdakı quldur yuvasını dağıtdı, "dəmir yumruq"la qondarma rejimi gedər-gəlməzə yolladı. Azərbaycan xalqının qanına susayan separatçı ünsürlər isə qandallanaraq Bakıya gətirildi və ədalət mühakiməsinə çıxarıldı.

### Ermənistanda qondarma rejimə şərait yaradılır

Lakin görünür, Paşinyan bütün bu baş verənləri, İkinci Qarabağ müharibəsində kapitulyasiya aktına imza atmasını, 23 saatlıq antiterror tədbirləri zamanı xuntaçıların ağ bayraq qaldıraraq yalvardıqlarını yadından çıxarıb. Belə olmasaydı, riyakar baş nazir hazırda açıq şəkildə separatizmə dəstək verməzdi.

Belə ki, Azərbaycanın 2023-cü ilin sentyabrında apardığı 23 saatlıq antiterror tədbirləri nəticəsində Qarabağdakı separatçı rejimin ləğvi elan olunsa da, hazırda Ermənistanda separatçıların təşkilatlanması və fəallaşması, necə deyərlər, yenidən baş qaldırması müşahidə olunur. Məsələn, 20 fevralda Qarabağda separatçı hərəkatın başlamasının ildönümü günü "Artsax" "rəhbərləri"nin yenidən üzə çıxması, Ermənistanın mətbuatında yayılan məlumatlara əsasən, keçmiş separatçı rejimin "nümayəndələri"nin gizli olaraq Ermənistan parlamentinin fraksiyaları və siyasətçilərlə çoxsaylı görüşlər keçirməsi və sair faktlar buna əyani nümunədir. O cümlədən Ermənistanın ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddiaları da buna sübutlardır. Hətta separatçıların fəaliyyət dairəsini genişləndirərək Qərb təmsilçiləri ilə də görüşlərə can atmaları hayların xəbis niyyətlərinin bir başqa təzahürüdür.

Bir sözlə, İrəvanın və başda Fransa olmaqla qərəzli Qərb ölkə və təşkilatlarının dəstəyi ilə qondarma rejim Ermənistanda baş qaldırır. Lakin Paşinyanın Ermənistanda separatizmə yaratdığı bu münbit şəraitin İrəvanın özünü məhvə sürükləyəcəyi şübhəsizdir.

### "Dəmir yumruğ"u unutmasınlar

Baş verən proseslər Ermənistanın hələ də Azərbaycana qarşı ərazi iddiası güddüyünü, beynəlxalq hüququ heçə saydığını açıq göstərir. Paşinyanın min bir fitnə fəsadla sülhdən yayınmasının da əsl səbəbi budur. Makron hökumətinin İrəvana siyasi dəstək verməsi, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti kimi korrupsiya yuvasına çevrilmiş qurumlar vasitəsilə Azərbaycana qarşı təzyiqlər göstərməyə çalışması Paşinyan hökumətini özləri üçün acı nəticələrə gətirib çıxaracaq ağılsız addımlar atmağa cürətləndirir. Təkcə bir misal çəkək: İkinci Qarabağ müharibəsində Ermənistan ordusunun 10 mindən çox fərarisinin olduğunu unudan Ermənistanın baş naziri Fransanın verdiyi köhnə-külüş silah-sursatlara güvənərək, nəinki Cənubi Qafqazın, eləcə də dünyanın ən güclü orduları sırasında ilk pillələrdə qərar tutan Azərbaycan Ordusu ilə savaşmaq kimi sayıqlamalar edir.

Ancaq Paşinyan da, havadarları da bilməlidirlər ki, "dəmir yumruq" yerindədir və istənilən an revanş hisslərinə qapılanların başına endirilə bilər.

Eyni zamanda Qərb ağalarının qızışdırması ilə Ermənistanda separatizmə açıq dəstək verən Paşinyan hökuməti bu gerçəyi də göz önünə gətirməlidir ki, bu halda Azərbaycan dövləti Qərbi Azərbaycanı bəyan edə bilər.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Ermənistanda hakimiyyət separatçıların fəaliyyəti üçün şərait yaradır

**Son günlər Ermənistan informasiya məkanında Qarabağ mövzusu gündəmi zəbt edib. Görünür, İkinci Qarabağ müharibəsində, eləcə də ondan sonrakı antiterror əməliyyatlarında Azərbaycan Ordusundan sarsıdıcı zərbə alan ermənilər yenə də xam xəyallarla yaşamaq istəyirlər.**



Ötən ilin sentyabrında özünü buraxmış və deməli, artıq mövcud olmayan Qarabağ xuntası yenidən Ermənistanda baş qaldırır. Bu, bir növ ölünün xortlamasına bənzəyir. Kamera qarşısında özünü sülhün tərəfdarı kimi göstərən Ermənistan rəhbərliyi gizlində separatçıların fəaliyyəti üçün şərait yaradır. Əgər şərait yaratmasa, xunta rejiminin tör-töküntüləri bir addım belə ata bilməzlər. Separatçılar onlar üçün Ermənistan hakimiyyətinin yaratdığı bu şəraitdən geninə-boluna yararlanaraq fəaliyyətlərini genişləndirməyə, Qərb dövlətlərinin nümayəndələri ilə də görüşlər keçirməyə can atırlar.

Bu günlər Ermənistanda baş verən hadisələr göstərir ki, düşmən ölkənin daxilində Qarabağ separatçıları ilə bağlı ciddi qarşıdurma və ziddiyyətlər hökm sürür. Ermənistan prezidenti əvvəllər Qarabağdakı keçmiş qondarma qurumun strukturlarının saxlanılmasına qarşı çıxırdı. Buna görə də Ermənistanda Qarabağ ermənilərinə ögey münasibət göstərilirdi. Bunun da müəyyən səbəbləri var idi. Hakimiyyətdə olanlar ilk günlər separatçıların Ermənistanda dövlət çevrilişi və Qarabağ klanını yenidən canlandırmaq kimi niyyətlərindən ehtiyat edirdilər. Kürsülərini itirməkdən qorxurdular. Buna görə də Qarabağ separatçıları Ermənistanda sıxışdırılırdı.

Həmin ərəfələrdə keçmiş qondarma rejimin "rəhbəri" Samvel Şahramanyanın Ermənistanın üçüncü prezidenti Serj Sarkisyanla gizli görüş keçirməsi barədə mətbuatda xəbərlər də yayılmışdı. Təbii ki, tərəflərin görüşü hökumətin diqqətindən yayınmamışdı. Keçirilən bu gizli görüşlər Nikol Paşinyan hökumətinə qarşı bir planın qurulmasından xəbər verirdi. Bu gizlin görüş sonda baş nazirin səbr kasasının daşmasına gətirib çıxardı. Uzun müddətdən bəri xoşu gəlməyən dövlət xadimlərini, hərbi elitanın üzvlərini parlamentin "44 günlük müharibənin şəraitini araşdıran komissiya"sı vasitəsilə cəzalandıran Paşinyanın tapşırığı ilə Samvel Şahramanyan dindirilmə üçün dəvət edildi. Bir neçə saat davam edən sorğu-sual barədə mətbuata ətraflı məlumat verilməsə də, siyasi dairələrdə tezliklə separatçı "liderin" ciddi cəzalandırılacağı barədə xəbərlər dolaşmağa başladı.

Həmin ərəfədə Ermənistan mətbuatında Qarabağ klanının əleyhinə informasiyalar yayılmağa başladı. İctimai xadim, Qarabağ Erməniləri Hərəkatının rəhbəri Artur Ağacanov bildirmişdi ki, Qarabağda separatçıların formalaşması artıq keçmişdə qalıb. "İnsanları Qarabağdan çıxmağa təhrik edən xuntanın keçmiş "rəhbər"ləri (əksəriyyəti Azərbaycandadır, mühakimə olunur) indi vəziyyətdən narazıdırlar, çünki onların heç kimə faydası olmayıb, vərdiş etdikləri maliyyə dəstəyindən məhrum olublar. Aydındır ki, bu adamlar ehtirasları körükləməyə çalışacaqlar, erməni cəmiyyətinin radikal nümayəndələri isə onları dəstəkləyəcəklər. İrəvandakı Qarabağ klanının nümayəndələri, Ermənistanın keçmiş prezidentləri Robert Koçaryan və Serj Sarkisyanın tərəfdarları da bu işə qarışırlar. Ermənistana köçən Qarabağ erməniləri manipulyasiya ediləcəklər. A.Ağacanov bütün bunların Ermənistanın indiki hakimiyyətinə lazım olmadığını qeyd edib. "Separatçıların keçmiş rəhbərləri və Qarabağ klanı isə Ermənistan Respublikasında vəziyyəti gərginləşdirəcəklər, ona görə də onların indiki Ermənistan hökuməti ilə qarşıdurma yaşayacaqlarını demək olar. Bu fitnə-fəsad törədənlərin vəzifəsi, əslində, Ermənistan Respublikasında hakimiyyətə gəlməkdir", - deyib.

Bütün bunlar əvvəlki illərdə olub. Bu gün isə Ermənistanda hadisələr tamam başqa istiqamətə doğru inkişaf edir. Rəsmi İrəvan yenə də Qarabağ separatçılarını dəstəkləyir. İndi Qarabağ klanından hakimiyyəti üçün elə bir təhlükə görməyən Paşinyan hökuməti özü onların fəaliyyəti üçün şərait yaradır. Yenə də bu terrorçu dəstədən öz məqsədi üçün istifadə etməyə çalışır. Xarici havadarlarının dəstəyindən həvəslənən haylar yenə öz xislətlərinə uyğun hərəkət etməyə başlayıblar. Deyəsən, ermənilərin yaddaşı pozulub, Azərbaycandan aldığı zərbələri unudublar.

Həmişə olduğu kimi, Ermənistan yenə də Fransaya, Qərb ölkələrinə arxalanaraq ikiüzlü siyasət yürüdür. Müxtəlif bəhanələrlə sülh danışıqlarından yayınmağa çalışır. Üzdə bir söz deyir, arxada söylədiklərinin əksini edir. Bu gün Qarabağ separatçılarına dəstək verməklə, revanşistlərin fəaliyyəti üçün şərait yaratmaqla Ermənistan özünə dərin quyu qazır. Çünki revanşist qüvvələr hansı ölkələrdə baş qaldırırsa-qaldırsın, xalqlarına yalnız göz yaşı və ölüm-itim gətirirlər. Qarabağ xuntasını, separatçıları dəstəkləyən Paşinyanı da separatçıların aqibəti gözləyir. Separatçıya dəstək verənin özü də separatçıdır. Əgər Ermənistan, doğrudan da, Azərbaycanla normal danışıqlar aparmaq istəyirsə, ölkəsində separatizmin kökünü kəsməli, baş qaldıran revanşizm alovunu söndürməlidir. Yoxsa bu gedişlə revanşizm alovu Ermənistanı başdan-başa yandıracaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Fransanı regionda möhkəmləndirmək cəhdləri Ermənistanı fəlakətə sürükləyir

**"Tarixin zibilliyinə atılmış qondarma separatçı rejimin Ermənistanda yenidən baş qaldırması təsadüfi deyil. Nəzərə almaq lazımdır ki, Ermənistan hakimiyyəti həmin rejimin dirçəlməsi üçün bütün imkanlardan istifadə edir. Bununla da gələcəkdə geosiyasi şəraitin dəyişəcəyinə ümid bəsləyir".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Musa Qasımlı deyib. Deputat söyləyib ki, separatçıların istəkləri Paşinyan hökumətinin imkanları ilə üst-üstə düşmür. Ermənistan bütün ölçülər baxımından Azərbaycandan dəfələrlə geridə olduğuna görə, xəyallarını heç vaxt gerçəkləşdirə bilməz.

"Paşinyan hökumətinin artıq mövcud olmayan bir qondarma qurumun dirçəlməsindən ötrü separatçıların Qərb təmsilçiləri ilə görüşlərinə şərait yaratması Azərbaycana təzyiq məqsədi güdür. Bunda Fransanın təsirini görməmək mümkün deyil. Nəzərə almaq lazımdır ki, Azərbaycanın qazandığı zəfər təkcə Ermənistanın, dünya erməniliyinin deyil, bütün ermənipərəst dairələr və dövlətlər üzərində qazanılmış qələbədir. Bunu isə Qərbdə bəzi dairələr, xüsusən də Fransa həzm edə bilmirlər", - deyə müsahibimiz bildirib.

Deputat vurğulayıb ki, Ermənistanın iki stulda oturmağa çalışması, müstəqil olmaması və maraqlarının harada daha yaxşı təmin olunduğunu bilməməsi ermənilərin dərketmə problemidir: "İrəvan maraqlarını təmin etmək, eləcə də iqtisadi və siyasi tərəqqiyə nail olmaq üçün qonşularla dil tapıb yola getməlidir. Kənardan üçüncü dövləti regiona gətirmək, münasibətləri gərginləşdirmək yaxşı heç nə vəd etmir. Fransanı Cənubi Qafqazda möhkəmləndirmək cəhdləri Ermənistanı fəlakətə sürükləyir. Bu həm region, həm də regiona bitişik dövlətlərin maraqlarına ziddir".

Musa Qasımlı Ermənistanın odla oynadığını qeyd edib. Bildirib ki, Paşinyan hökuməti həm 44 günlük Vətən müharibəsində, həm də lokal xarakterli antiterror tədbirlərində Azərbaycana edilən heç bir təzyiqin nəticə vermədiyini başa düşməlidir: "Azərbaycan haqlı məsələsini özü həll etdi. Ona görə də Ermənistan əgər gələcəyini yaxşı görmək istəyirsə, Azərbaycanla münasibətləri normallaşdırmağa çalışmalıdır. Sərhədlərin delimitasiyası və demarkasiyasını həyata keçirməli, sülh sazişini imzalamalıdır. Onlar yalnız bundan sonra inkişafa çata bilərlər. Ümumiyyətlə, Ermənistan müstəqil siyasət yürüdəcəyi halda daha çox qazanar, Azərbaycanın imkanlarından faydalana bilər. Qarşıdurma mühiti Ermənistana yaxşı heç nə vəd etmir".

Azərbaycanın 2020-ci ildəkindən daha güclü, ordusunun daha qüdrətli, döyüş ruhunun kifayət qədər yüksək olduğunu vurğulayan Musa Qasımlı əlavə edib: "Ermənistan bu vəziyyəti gerçək qiymətləndirməlidir. Başa düşməlidir ki, İrəvan hər hansı bir iddia ortaya atacağı halda, biz də Qərbi Azərbaycan məsələsini qaldırar, doğma yurdlarından qovulmuş soydaşlarımızın tarixi torpaqlarına qayıtmasını tələb edər və təzminat məsələsini irəli sürərik. Ona görə də azərbaycanlıları indiki Ermənistandan zorla deportasiya edən, soyqırımı siyasətini həyata keçirən ermənilər bütün iddialardan əl çəkməlidirlər. Mehriban qonşuluq ən yaxşı yoldur. Əgər Ermənistan hakimiyyəti xalqına yaxşı güzəran bəxş etmək istəyirsə, Azərbaycanla münasibətlərini normallaşdırmalıdır, əks təqdirdə uduzan Ermənistan olacaq".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## 32 ölkə, 130-dan çox nümayəndə

### Bakıda keçirilən beynəlxalq elmi konfransda dünyaya mühüm mesajlar verildi



**Ötən həftə Azərbaycan paytaxtı Bakı daha bir beynəlxalq toplantıya - "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda keçirilən elmi konfransa evsahibliyi etdi. İki gün davam edən konfransın yekununda Birgə Kommünike qəbul olundu.**

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, G20 Dinlərarası Dialoq Forumu və Bakı Təşəbbüs Qrupunun birgə dəstəyi ilə keçirilən elmi konfransda dünyanın 32 ölkəsindən alimlər, beynəlxalq təşkilatların ekspertləri, din xadimləri və qeyri-hökumət təşkilatlarından 130-dan çox nümayəndə iştirak etdi.

Ümumiyyətlə, bu beynəlxalq elmi konfrans ilk növbədə Azərbaycanın qlobal nüfuzunun göstəricisi və ölkəmizə verilən qiymətin əyani təzahürü oldu.

Azərbaycan islamofobiya, ksenofobiya kimi mərəzlərdən əziyyət çəkən ölkələrdəndir. Birinci Qarabağ müharibəsi dövründə soydaşlarımız qaçqın və məcburi köçkün düşəndə, sonrakı illərdə, elə bu günün özündə də hər cür ayrı-seçkiliklə üzləşirik. Ksenofobiyanın tüğyan etdiyi Qərbdə Ermənistana, Gürcüstana, Ukraynaya xüsusi, Azərbaycana, digər türk və müsəlman ölkələrinə isə tamam fərqli münasibətin göstərildiyinin şahidiyik. Bir vaxtlar vandal ermənilərin qanlı əməllərinə "azadlıq uğrunda mücadilə" adını verənlər Azərbaycanın separatizmlə mübarizəsini, ərazi bütövlüyünü təmin etməsini "etnik təmizləmə" adlandırdılar. Bununla bağlı müxtəlif faktlar göstərmək olar.

### Dünyada islamofobiya meyilləri sürətlə artmaqdadır

Bakıda "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfransın keçirilməsi və dünyaya müxtəlif mesajların ötürülməsi bəzi dövlətlərə xəbərdarlıq oldu.

Tədbirin islam aləmi üçün mübarək ramazan ayının başlaması və 15 Mart - İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü ərəfəsində keçirilməsinin rəmzi məna kəsb etdiyini deyən Prezident İlham Əliyev konfrans iştirakçılarına ünvanladığı məktubda vurğuladı ki, təəssüflər olsun dünyada islamofobiya meyilləri sürətlə artmaqdadır və islamın potensial təhlükə mənbəyi kimi aşılandığının, müsəlmanlara qarşı şübhə, ayrı-seçkilik və açıq nifrətin gündən-günə daha geniş yayıldığının şahidi oluruq.

"İslamofobiya ilə Mübarizə Gününə dair BMT-nin Qətnaməsində də qeyd edildiyi kimi, dini inanclarla bağlı ayrı-seçkilik, dözümsüzlük və şiddət hallarının çoxalması dərin narahatlıq doğurur. Acınacaqlı haldır ki, hazırda islamofobiya özünü demokratik hesab edən bir sıra Qərb ölkələrinin dövlət siyasətinin tərkib hissəsini təşkil edir" deyən dövlət başçısı vurğulayıb ki, son bir ildə dünyada baş vermiş bütün antiislam təzahürlərinin 80 faizi bu ölkələrin payına düşür. İslamofobiyanın ən yüksək səviyyəyə çatdığı və rəsmi ideologiya kimi tətbiq olunduğu bəzi Avropa ölkələrində müqəddəs kitabımız "Qurani-Kərim"in yandırılması, Məhəmməd Peyğəmbərin (s.ə.s) karikaturalarının nəşr edilməsi və sair təhqiramiz hərəkətlər söz azadlığı kimi qələmə verilir. Fransa özünün ənənəvi neokolonializm siyasəti ilə bərabər, müsəlmanlara qarşı açıq-aşkar təzyiq və diskriminasiya siyasəti yürüdür, müxtəlif islamofob kampaniyalar təşkil edir. "Dünyəvilik" adı altında sırf müsəlmanların hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yönəlmiş qanunvericilik aktları və siyasi qərarlar qəbul edir. Bu ölkədə məscidlər, müsəlman mədəniyyət mərkəzləri və qəbiristanlıqlar müxtəlif formalarda təhqirlərə məruz qalır, müsəlman vətəndaşlar sıxışdırılır.

### AP və AŞPA islamofobiyanı təşviq edən platformalara çevrilib

Bütün bunlar elə-belə səsləndirilmir. Yəni bununla bağlı yetərincə faktlar var. Məsələn, konfransda iştirak edən Fransanın "Musulmans en France" xəbər portalının təsisçisi və baş redaktoru Jan-Mişel Brönün moderatorluğu ilə keçən "Fransada müsəlmanlara qarşı siyasətlər: İslamofobiyanın normallaşdırılması" mövzusunda sessiyada çıxış edən müstəqil tədqiqatçı və publisist Rolan Öjen Lafit (Roland Eugene Laffitte) deyib ki, Fransada müsəlmanlığı siyasi anlayış kimi təlqin edirlər. İslamı isə zorakı din, cihad mənbəyi, idarəolunmaz məfhum kimi qəbul edirlər. Tədqiqatçının fikrincə, bu gün islamofobiya Fransada dövlət siyasətidir. Əgər Fransada şəxs polis tərəfindən saxlanılarsa və o, ərəb mənşəli olarsa, daha çox çətinliklə üzləşir. Əgər iş müraciəti zamanı ərəb soyadınızın olduğunu görərlərsə, şansınız digərlərinə nisbətən 7 dəfə daha azdır.

İlham Əliyev Qərbin bəzi təşkilatlarının, xüsusən də Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyasının bu gün islamofobiyanı təşviq edən və bu ideologiya əsasında siyasət yürüdən platformalara çevrildiklərini də bəyan edib.

Azərbaycan Prezidenti bir daha həmin dairələrə mesaj ünvanlayaraq qeyd edib ki, islam sülh, mərhəmət, dözümlülük və ədalət dinidir. Dünya xəritəsinə baxdıqda terrordan ən çox əziyyət çəkənlərin məhz müsəlmanlar olduğunu görə bilərik. Azərbaycanın isə çoxmillətli və çoxkonfessiyalı ölkə olması qürurvericidir. Çünki burada bütün dinlərin və etnik qrupların nümayəndələri əmin-amanlıq şəraitində bir ailə kimi yaşayırlar. Ölkəmizdə milli sərvət kimi qorunan dini bərabərlik və inklüzivlik Azərbaycan xalqının həyat tərzidir, onun güc mənbəyidir. Bundan irəli gələrək təbiidir ki, multikultural dəyərlərə hörmət bizim dövlət siyasətimizin prioritet istiqamətlərindən birini təşkil edir.

İlham Əliyev bəyan edib ki, XXI əsrdə islamofobiya, ksenofobiya və irqçiliyə yer olmamalıdır. Terrorizm və ekstremizmi hər hansı bir din, millət, sivilizasiya və ya etnik qrupla əlaqələndirmək yanlış yanaşmadır. Dindən siyasi məqsədlər üçün istifadə yalnız cəmiyyətlər daxilində nifaq və qarşıdurma yaratmağa xidmət edir. Bu təzahürlər eyni zamanda insanlığı humanizm ideallarından və ümumbəşəri dəyərlərdən məhrum edir, nəticədə sivilizasiyalararası münaqişələrə gətirib çıxarır.

Bakıda keçirilən beynəlxalq elmi konfrans Azərbaycanın müasir dövrün çağırışlarından olan islamofobiya ilə mübarizə əzmini bir daha nümayiş etdirdi. Prezidentin də söylədiyi kimi, konfrans islamofobiyaya qarşı birgə səylərlə mübarizəyə, dinlərin və inancların müxtəlifliyinə hörmətə əsaslanan tolerantlıq, sülh mədəniyyətinin təşviqi ilə bağlı yeni təşəbbüslərin irəli sürülməsinə töhfə verəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Qərb islam dünyasını zəiflətmək üçün bütün imkanlardan istifadə edir

**"Fransa başda olmaqla, Avropa dövlətlərinin əksəriyyəti guya islamdan qorxur. Onlar üçün sanki islam problemdir, azad ruhlarını əllərindən alır. Qərb bu və digər şüarlarla uzun illərdir islama qarşı təbliğat aparır. Onlar islam dünyasını zəiflətmək üçün bütün imkanlarından istifadə edirlər".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib. Deputat bildirib ki, Bakıda keçirilmiş "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfransda islam ölkələrinin nümayəndələrinin iştirakı və hər birinin çıxışı Qərbin islama münasibətini bir daha göstərdi: "Əslində, Avropa islama düşməndir. İslam dünyanın sonuncu dini olmaqla yanaşı, ən mütərəqqi dindir və insanın insan kimi fəaliyyəti, hüquqlarının qorunması, azad istəklərinin reallaşdırılması üçün bütün xalqlara bərabərlik verir. Sual oluna bilər ki, dünyanın hansı ölkəsində din adamları bir-birinin yanında olur? Təbii ki, Azərbaycanda. Ölkəmizin şeyxülislamı da, müftisi də, provoslavı da, katoliki də, yəhudisi də tədbirlərdə bir yerdədirlər. Dünya bunu görür, amma qəbul etmək istəmir".

A.İsgəndərovun fikrincə, islamla bağlı elə sözlər uydurulur ki, bunun doğru olmadığını Qərb özü də yaxşı bilir: "Tarix boyu heç bir müsəlman din adamı müharibəyə çağırış etməyib. Amma bizə qonşu olan Ermənistanın erməni din xadimləri həmişə müharibə çağırışı edirlər. Ermənistanın baş naziri az qala hər həftə çıxışında deyir ki, Qarabağ Azərbaycan torpağıdır, amma ermənilərin katolikosu II Qaregin bu günə qədər o reallığı dilinə gətirməyib. Elə düşünür ki, o fikri söyləsə, dili tutular".

Deputat qeyd edib ki, Qərbin din xadimləri islamla bağlı mif yaradırlar. Bu, Avropaya görədir, bundan istifadə edirlər. Əslində, islam ölkəsi olaraq Qərbin bu əməllərini başa düşürük. Uzun illərdir Niderland, Fransa, Belçika kimi ölkələrdə islam dini ocaqları ilə bağlı nə qədər problemlər ortaya çıxır. İspaniyada islam dininə qarşı soyqırımı, vandalizmin izləri min il keçsə də, yaddan çıxmayacaq. Amma biz müsəlman ölkəsi olaraq dünyanın digər xalqlarına qarşı vandalizm hərəkətlərinə yol verməmişik. Bizim üçün məscid də, kilsə də, sinaqoq da Allahın evidir. Hamısına münasibətimiz eynidir, onları bir-birindən fərqləndirmirik.

Azərbaycanın nümunəvi tolerant ölkə olduğunu deyən A.İsgəndərov bildirib ki, Avropanın bizdən öyrənməyə ehtiyacı var. "Əgər bunu edərsə, qazanan onlar olacaq. Biz öz yolumuzla davam edirik. Bu yolda haqq, ədalət, halallıq var. Müqəddəs "Qurani-Kərim" cəmiyyətin yetişməsi, nümunəvi olması üçün özündə hər şeyi ehtiva edir. Biz də müqəddəs kitabdan nəticə çıxararaq dünyaya baxırıq", - deyə deputat əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## *Erməni siyasətçi:* "Ermənistanın "demokratikləşməsi" blefdir və Paşinyanın sponsorları bunu yaxşı bilirlər"

**"Ermənistanın "demokratikləşməsi" blefdir və bunu ölkənin sadə vətəndaşları ilə yanaşı, Paşinyanın sponsorları da yaxşı bilirlər. Qərbin siyasi dairələri apardığı geosiyasi oyunlara görə Nikolun getdikcə seyrələn saçlarını sığallasalar da, onlar Ermənistandakı rejimin iç üzünü çox gözəl başa düşürlər".**




AZƏRTAC erməni mediasına istinadla xəbər verir ki, bu fikirləri Ermənistanın Respublikaçılar Partiyasının sədr müavini Armen Aşotyan söyləyib. O deyib: "Ermənistanda hakimiyyətə qulluq edən medianın "demokratiya" haqqında boş sözləri ilə yanaşı, beynəlxalq strukturlar da ölkəmizdəki vəziyyətlə bağlı hesabatlar tərtib edirlər. EIU institutunun "Democracy Index" hesabatını və İngiltərənin nüfuzlu "The Economist" nəşrinin analitik mərkəzinin məqaləsini misal çəkmək istəyirəm. Paşinyan hakimiyyətinin "demokratiya" haqqında sayıqlamalarına baxmayaraq, Ermənistan bu hesabatlarda "hibrid rejim" kateqoriyasına daxil edilib. Belə ki, ölkədə qanunun aliliyi çox zəif təmin edilir, korrupsiya isə gündən-günə "çiçəklənir". Vətəndaş cəmiyyəti də olduqca zəifdir, məhkəmə hakimiyyəti müstəqil deyil, jurnalistlər təzyiq altındadır. Bu, Nikolun "demokratiyasının" real mənzərəsidir".

Erməni siyasətçi bildirib ki, Ermənistan bütün hesabatlarda iki pillə geriləyib. "Beynəlxalq təsisatlar qeyd edirlər ki, Paşinyana və onun hakimiyyətinə xalq dəstəyi tamamilə iflasa uğrayıb. Bunun nəticəsində indiki hökumət legitim sayıla bilməz. Ötən il Baydenin təşkil etdiyi demokratiya sammitində "demokratik dəyərlərdən" ağızdolusu danışan Nikol artıq bu il səsini kəsib. İndi təkcə bir sual cavabsız qalır; şişmiş "demokratiya" şarı Paşinyanın, yoxsa erməni xalqının başında partlayacaq?", - deyə Aşotyan vurğulayıb.

## *Quram MARXULİYA:* "Yunanları, erməniləri və fransızları türklərə qarşı tarixi düşmənçilik, geosiyasi oyunlar birləşdirir"

**"Dövrümüzün geosiyasi çağırışları, cərəyan edən proseslər bilavasitə bəzi dövlətlərin ittifaq yaratmasına, digərlərinin isə dağılmasına təkan verir. Geosiyasi maraqlar çərçivəsində əməkdaşlığın strukturu onların həm birləşməsi, həm də ayrılması ilə xarakterizə olunur. Ona görə də heç bir əməkdaşlıq bloku geosiyasi baxımdan ayrılmaz hesab edilə bilməz. Geosiyasi birliklər yalnız nisbi, tam olaraq tərəfdaş ölkələrin geosiyasi maraqlarının üst-üstə düşdüyü dərəcədə, sonra isə müvəqqəti şəkildə ayrılmaz ola bilər".**



Bu sözləri AZƏRTAC-a tarixçi-alim, Suxumi Dövlət Universitetinin professoru Quram Marxulia söyləyib.

Alim deyib ki, Azərbaycan özü tarixi ədaləti və hüquqlarını təmin edərək 44 günlük müharibədə Ermənistan tərəfindən işğal altında saxlanılan torpaqlarını geri qaytardı və ermənilərin "böyük Ermənistan" yaratmaq ideyası sabun köpüyü kimi çökdü. "Böyük hayların övladları" taleyin hökmünə boyun əyərək Azərbaycan ilə sülh müqaviləsi bağlamağa hazır idilər və bundan sonra sülh yolu ilə yeni dövlət quruculuğuna başlayacaqdılar. Lakin Cənubi Qafqazda geosiyasi maraqları olan Fransa İrəvana yeni ümidlər aşıladı. Məsələ burasındadır ki, Türkiyədən incimiş dövlətlər Fransanın nəzarəti altında bir araya toplaşdılar. Bunlar ilk növbədə Yunanıstan, Kipr və təbii ki, Ermənistan oldu. Aydındır ki, yunanları, erməniləri və fransızları türklərə qarşı tarixi düşmənçilik, geosiyasi oyunlar birləşdirir.

Quram Marxulianın sözlərinə görə, onlar Hindistanı bu virtual birliyə qoşmaqlarına söz verirlər. Burada başlıca məqsəd Pakistana təsir etməkdir ki, bu da hələlik mümkün deyil. Türkiyəni və Azərbaycanı həm beynəlxalq, həm də ikitərəfli münasibətlərdə fəal şəkildə dəstəkləyən Pakistandır. Ona görə də onlar tarazlıq olsun deyə Hindistanı özlərinə qoşmaq istəyirlər.

"Geosiyasi oyunçuların fəaliyyətində ən mühüm amili dünyanın müəyyən regionlarında mədəni, sivilizasiya və demoqrafik üstünlüklər təşkil edir. Bu amillər dövlətin, mədəniyyətin və sivilizasiyanın "genişlənməsinə" birbaşa təsir göstərir. Bu cür genişlənmə ilə bağlı ölkənin bütün maraqları sırf geosiyasi xarakter daşıyır. Tutaq ki, yunanların geosiyasi strategiyası qədim Elladadan kənarda özünə bənzər bir dünya yaratmağa yönəlib. Nəticədə Ellin dünyası, yəni yunan mədəniyyəti dünyası yarandı, amma bu, qədim dünya idi və hətta Bizans dövründə də mənəvi impuls tükəndiyindən geosiyasi məkanlarını qoruyub saxlaya bilmədilər", - deyə professor diqqətə çatdırıb.

Onun sözlərinə görə, İrəvanda yəqin xatırlamırlar ki, 1045-ci ildə erməni dövlət quruluşunu yunanlar dağıdıblar, erməni əhalisini Kilikiyaya, Kapadokiyaya və imperiyanın digər bölgələrinə köçürüblər. Həmin dövrdə ermənilər türkləri öz xilaskarları və himayədarları hesab edirdilər. Lakin tarixi yaddaş sonradan dəyərlərini itirdi. Ona görə də İrəvanda siyasətçilərin belə bir ittifaqa can atmasını başa düşmək çətindir, xüsusilə ona görə ki, bu, erməni xalqına yeni əzablardan başqa heç nə gətirməyəcək.

Təcrübədən də göründüyü kimi, dünya siyasəti zəif tənzimlənən və az proqnozlaşdırıla bilən proses olduğundan beynəlxalq əməkdaşlığın mahiyyətini dərk etmək üçün "maraqlar" anlayışı aparıcı mövqeyə çevrilir. Sürətlə dəyişən dünyada maraqlar da sürətlə dəyişir.

Əməkdaşlığın geosiyasi mahiyyəti bəzi dövlətlərin digərlərinin geosiyasi ekspansiyasına qarşı səylərinin birləşdirilməsinin məcburi xarakterində özünü göstərir. Ona görə də bu gün Ermənistan fransızlara qoşulmamalıdır. Nəzərə alınmalıdır ki, vaxtilə Fransa Rusiya və İngiltərə ilə birlikdə Ermənistanın yaradılmasını və ermənilərin əldə etdiklərini onlara vəd etmişdi. Lakin bu da quru vəd olaraq qalır.

"Ona görə də düşünürəm ki, bu gün Ermənistan rəhbərliyi Azərbaycanla sülh sazişi imzalamalı və regionda çoxdan gözlənilən sabitliyi, sülhü bərqərar etməlidir", - deyə Q.Marxuliya vurğulayıb.

# REGİONLAR

## Samuxda şəhidin doğum günü qeyd edilib

**Azərbaycan Ordusunun Qarabağdakı qanunsuz erməni silahlı birləşmələrinə qarşı apardığı lokal xarakterli antiterror tədbirində həlak olmuş Samux rayon sakini Həsənov Həsən Zabit oğlunun doğum günündə məzarı ziyarət edilmiş, şəhidin adının əbədiləşdirilməsi məqsədilə inşa edilən bulağın açılış mərasimi keçirilmişdir.**



Tədbir iştirakçıları əvvəlcə şəhidin məzarı önünə gül dəstələri qoymuş, ruhuna dualar oxuduqdan sonra keçdiyi şərəfli ömür yolundan, göstərdiyi şücaət və qəhrəmanlıqlardan söhbət açmışlar.

Şəhidin ailə üzvləri Azərbaycanda şəhidlərə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə öz minnətdarlıqlarını bildirmişlər.

Qeyd edək ki, Zabit Həsənov 1995-ci ilin martında Samux rayonu Bağbanlar kəndində anadan olmuşdur. Subay idi. O, göstərdiyi igidliyə görə "Vətən uğrunda" medalı və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

## Naftalanda "Qərbi Azərbaycan: tarixi həqiqətlər"dən söz açılıb

**Naftalan Şəhər İcra Hakimiyyətinin və Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə "Qərbi Azərbaycan: tarixi həqiqətlər" mövzusunda "dəyirmi masa" keçirilmişdir.**



Tədbir iştirakçıları öncə Ümummilli Lider Heydər Əliyevin ömür yoluna aid foto-eksponatlarla və Qərbi Azərbaycanın mədəni irsini, tarixini və deportasiya prosesini əks etdirən kitab və fotoşəkillərdən ibarət sərgi ilə tanış olmuşlar. Sonra azərbaycanlıların soyqırımından bəhs edən videoçarx nümayiş etdirilmişdir.

Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin, eləcə də soyqırımı qurbanlarının xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov çıxış edərək ermənilər tərəfindən azərbaycanlılara qarşı əsrlər boyu törədilən bəşəri cinayətlər barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən işlərdən, bugünkü Ermənistan ərazisinin tarixi Azərbaycan torpaqları olmasından və mövzu ilə bağlı digər maraqlı faktlardan danışmışdır. Sonra söz "dəyirmi masa" iştirakçılarına verilmişdir. Onlar da əsrlər boyu ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımı cinayətlərindən söhbət açmış, bu cinayətlərin cavabını Azərbaycan Ordusunun Vətən müharibəsində layiqincə verdiyini vurğulamışlar.

***S.ƏLİYEV, "Azərbaycan"***

## Şəmkir iqtisadi göstəricilərini yaxşılaşdırır

### Ötən il rayon üzrə adambaşına düşən ümumi məhsul buraxılışında 10,7 faiz artım qeydə alınıb

**Ölkə iqtisadiyyatında qazanılan uğurlar bölgələrimizin inkişafını təmin etmiş, əhalinin güzəranını daha da yaxşılaşdırmışdır. Belə rayonlardan biri də Şəmkirdir. Xüsusən son illər həyata keçirilən tədbirlər rayonun sosial-iqtisadi mənzərəsini xeyli dəyişmişdir. Bunu 2023-cü ilin göstəricilərində daha aydın görmək olar.**

Ötən il rayon üzrə 115 milyon 845,4 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da əvvəlki ildəkindən 6,6 faiz çoxdur. Ümumi məhsul buraxılışının hər nəfərə düşən dəyəri isə 10,7 faiz artaraq 5329,60 manat olmuşdur.

Rayon iqtisadiyyatında qazanılan uğurlar əhalinin güzəranına müsbət təsir etmiş, onların gəlirləri xeyli artmışdır. Belə ki, hesabat dövründə rayon üzrə muzdla işləyənlərin sayı 16087 nəfərə çatmış və onların orta aylıq nominal əməkhaqqı əvvəlki illə müqayisədə 9,6 faiz artaraq 645,40 manat təşkil etmişdir. Amma iqtisadiyyatın ayrı-ayrı sahələrində işləyənlərin orta aylıq əməkhaqqı orta rayon göstəricisinə nisbətən yüksək olmuşdur. Məsələn, Şəmkirin emal sənayesində orta aylıq maaş 768,30 manata çatmışdır. Yeri gəlmişkən, onu da qeyd edək ki, il ərzində Şəmkirdə faktiki qiymətlərlə 86 milyon 13,70 min manatlıq, yəni əvvəlki ilə nisbətən 9,2 faiz çox sənaye məhsulu istehsal edilmişdir.

Süni maneələrin aradan qaldırılması, yerli sahibkarlarla aparılmış məqsədyönlü işlər nəticəsində keçən il rayon iqtisadiyyatına özəl investisiya qoyuluşu davam etmişdir. Cəlb edilmiş investisiyalar əsasən kənd təsərrüfatı məhsullarının istehsalı və satışı, istixanaların və meyvə bağlarının salınması, yaşayış binalarının tikintisi, müxtəlif ticarət və xidmət sahələrini əhatə etmişdir. Nəzərdə tutulmuş layihələrn icrası nəticəsində rayonda 548 yeni iş yeri açılmışdır.

Rayon iqtisadiyyatında aparıcı sahələrdən olan kənd təsərrüfatının inkişafı da diqqət mərkəzində saxlanılmışdır. Həyata keçirilən tədbirlər nəticəsində il ərzində rayon üzrə 746 milyon 757,3 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir ki, bu da əvvəlki ilin göstəricisindən 10,8 faiz çoxdur. Məhsul istehsalının 81,3 faizi bitkiçiliyin, 18,7 faizi heyvandarlığın payına düşmüşdür.

Rayonda əhalinin qaz, su və dayanıqlı elektrik təminatı istiqamətində ardıcıl tədbirlər görülür. Təkcə ötən il Aşağı Seyfəli kəndindəki yeni yaşayış massivində qazlaşdırılma işləri başa çatdırılmış, Zəyəm qəsəbəsində yeni subartezian quyusu qazılmış, Şiştəpə kəndində içməli suyun təminatı üçün Şəmkir şəhərində yeni nasosxana tikilmişdir. Bundan başqa, ümumi uzunluğu 21 min 296 metr olan SİP kabel xətti çəkilmişdir.

Şəmkirdə abadlıq və quruculuq işləri səngimir. İl ərzində 5,6 kilometr yola yeni asfalt-beton örtüyü çəkilmiş, 5,04 kilometr yolda asfalt örtüyü təmir edilmiş, paralel olaraq Şəmkir şəhərinin 6 küçəsi abadlaşdırılmış, ümumi sahəsi 20 hektar olan 5 parkda abadlıq, təmir-quruculuq işləri aparılmış, açıq idman və uşaqlar üçün əyləncə meydançaları yaradılmışdır.



Ümumiyyətlə, əvvəlki illərdə olduğu kimi, keçən il də Şəmkir şəhərinin təmizliyinə, əhaliyə göstərilən kommunal xidmətlərin keyfiyyətinin artırılmasına xüsusi diqqət göstərilmişdir. Söz düşmüşkən bildirək ki, rayon icra hakimiyyətinin tabeliyində fəaliyyət göstərən Kommunal Müəssisələri Kombinatı ötən ildən irihəcmli və müasir tələblərə cavab verən tullantı konteynerlərinin istehsalına başlamışdır. Bundan başqa, qənaət edilmiş vəsait hesabına 2 yeni nəqliyyat vasitəsi də alınmışdır.

Rayonda təhsil ocaqları yenidən qurulur. Artıq Şəmkir şəhəri M.Füzuli adına Texniki Humanitar Liseyin tikintisi başa çatmış, Zəyəm qəsəbəsi 1 nömrəli tam orta məktəb əsaslı təmir olunmuşdur. Hazırda Şəmkir şəhər Əhməd Cavad adına məktəb əsaslı təmir edilir.

Şəmkir 68 igidini Vətən müharibəsində şəhid vermişdir. Rayonda onların xatirəsinin əbədiləşdirilməsi üçün müxtəlif tədbirlər həyata keçirilir. Eyni zamanda tez-tez şəhid ailələrinin üzvləri ilə görüşlər keçirilir, onların sosial problemləri həll olunur, o sıradan məşğulluqları təmin edilir. Təkcə keçən il şəhid ailələrinin 66 üzvü daimi işlə təmin olunmuşdur. Bundan başqa, bu kateqoriyadan olan vətəndaşların mənzil təminatının yaxşılaşdırılması məqsədilə qanunauyğun şəkildə növbə yaradılaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilmişdir. Artıq 3 şəhid ailəsi üzvü Bakıda mənzillə təmin olunmuş, 2 nəfər müharibə əlilinə isə rayon ərazisində müxtəlif təyinatli torpaq sahələri ayrılmışdır. Ehtiyacı olan şəhid ailələrinə maddi yardım da edilir. Yalnız ötən il şəhid ailələrinin üzvlərinə edilmiş yardımın məbləği 181 min manat olmuşdur.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Qəbələyə gələn əcnəbi turistlərin sayı artıb

**Bu ilin yanvar-fevral aylarında Qəbələ rayonundakı hotel və mehmanxana tipli müəssisələrə 10 min 472 nəfər yerli və əcnəbi turist yerləşdirilib. Onların 5 min 441 nəfəri və ya 52 faizi Azərbaycan, 5 min 31 nəfəri və ya 48 faizi xarici ölkə vətəndaşı olub.**

Bu barədə AZƏRTAC-a Qəbələ Rayon Statistika İdarəsindən məlumat verilib. Bildirilib ki, yanvar-fevral aylarında Qəbələnin hotel və mehmanxana tipli müəssisələrinə yerləşdirilən yerli və əcnəbi turistlərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 413 nəfər və ya 4,1 faiz artıb. İki ayda yerli turistlərin sayı keçən ilin müvafiq dövrü ilə müqayisədə 487 nəfər və ya 8,2 faiz azalsa da, əcnəbi turistlərin sayında 900 nəfərədək və ya 21,8 faiz artım qeydə alınıb.

## Quba daha da yaşıllaşır

**Yanvar və fevral aylarında Qubanın park, xiyaban və yol kənarlarındakı qurumuş ağaclar kəsilərək onların yerləri yenidən əkilmək üçün hazırlanmışdı. Mart ayı başlayandan isə növbəli şəkildə həmin yerlərə ağaclar əkilir.**

Paralel olaraq Qusar istiqamətində yollarda müxtəlif növ ağaclar becərilir. Quba ölkəmizin yaşıllıqla zəngin rayonu olmasına baxmayaraq, yerli əhali onu daha da artırmaq istəyir. Ona görə də ağacəkmə aksiyalarında idarə və təşkilatlarla yanaşı, sakinlər də həvəslə iştirak edirlər.

Son bir neçə gün ərzində rayonun kənd və qəsəbələrində yüzlərlə fidan torpağa basdırılıb. Əkilən hər ağaca aqrotexniki qaydada xidmət göstərilir. Suvarmaları ilə bağlı problem yoxdur - mart girəndən hər gün yağış yağır. Buna baxmayaraq, məsələn, Zərdabi qəsəbəsində əkilən fidanlar üçün ayrıca su xətti də çəkilib. Qeyd edək ki, ağacəkmə aksiyası zamanı həmin ərazilərdə təmizlik və abadlıq işləri də aparılır.



Məlum olduğu kimi, Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bununla bağlı Quba Rayon İcra Hakimiyyəti tədbirlər planı hazırlayıb. Həmin plana əsasən, Qubada il ərzində yaşıllıqların qorunması və artırılması istiqamətində ardıcıl işlər görülür. Məqsəd ekoloji vəziyyətin sağlamlaşdırılması, cəmiyyətdə ekoloji mədəniyyəti və təbiətə qayğını təbliğ etmək ənənələrini davam etdirmək, ağac əkilməsini və yaşıllıqların salınmasını təşviq edərək ətraf mühitin qorunmasına töhfə verməkdir.

***Akif ƏLİYEV, "Azərbaycan"***

## ASF arıçıları da darda qoymayacaq

### Fond arı ailələrini öz çətiri altına alacaq

**Müasir dünyada ərzaq təhlükəsizliyi ön plana keçib. Hətta o dərəcədə ki, ərzaq təminatı hərbi cəhətdən hazırlıqlı olmaq qədər aktuallaşıb. Eyni zamanda bu sahə dövlətlərin bir-birinə təsir vasitəsinə çevrilib. Əvvəllər sanksiyalar neft və qaz sahəsini əhatə edirdisə, indi bu siyahıya ərzaq məhsulları da əlavə olunub.**



Rusiyanın Ukraynaya təcavüzü üzündən Qərb ölkələri tərəfindən şimal qonşumuza tətbiq edilən sanksiyalar dünyanın ərzaq təchizatına da təsir edib. Yaxşı ki, BMT və Türkiyə varmış. Yoxsa az qala dünyanın yarısı taxıl qıtlığı, yəni aclıqla üzləşəcəkdi. Amma nə müharibələr qurtarana oxşayır, nə də sanksiyalar. Odur ki, hazırda qlobal miqyasda baş verən siyasi gərginlik iqtisadiyyata mənfi təsir göstərməkdə davam edir. Bu günlər Avropanın bir çox ölkəsində fermerlər etiraz aksiyaları keçirirlər. Səbəb müxtəlifdir - dövlət tərəfindən vergilərin artırılmasından, yanacağın qiymətinin bahalığından tutmuş məhsulların satışında olan problemlərəcən.

Bütün bunların fonunda Azərbaycan kəndlisi uzun illərdir torpaq vergisindən savayı, bütün növ vergilərdən azad olunub. Üstəlik, aldığı gübrəyə, işlətdiyi yanacağa və sürtkü yağlarına görə dövlətdən subsidiya alır. Bununla yanaşı, fermerlərə damazlıq heyvanlar, ting və toxuma görə də müəyyən güzəştlər edilir. Məqsəd ölkənin ərzaq təhlükəsizliyini yerli istehsal hesabına etibarlı şəkildə təmin etməkdir.

Dövlət tərəfindən aqrar sektora verilən dəstək növləri daim artmaqdadır. Onlardan biri də aqrar sığortanın tətbiqidir. Xatırladaq ki, ölkəmizdə istehsal etdiyi məhsulu sığortalamaq istəyən fermerlərin və fərdi sahibkarların ödəyəcəkləri sığorta haqqının 50 faizi dövlət tərəfindən qarşılanır. Azərbaycan kəndlisi dövlətin bu dəstəyindən məmnundur. O üzdən Aqrar Sığorta Fondunun (ASF) xidmətlərindən istifadə edən istehsalçıların sayı sürətlə artır. Bu artımın digər səbəbi isə sığorta olunan sahələrin genişlənməsidir.

Aqrar sığorta mexanizmi çərçivəsində gələcəkdə arı ailələrinin də sığortası planlaşdırılır. Artıq bu məqsədlə ASF-də Azərbaycan Arıçılar Assosiasiyasının rəhbərliyi və üzvləri ilə görüş keçirilib. Görüşdə arı ailələrinin sığortalanmasına dair ilkin müzakirə aparılıb. Təcrübəli arıçılar və ASF-nin mütəxəssislərinin iştirak etdikləri görüşdə fondun idarə heyətinin sədri Fuad Sadıqov aqrar sığortanın mexanizmi, onun işləmə prinsipi və üstünlükləri barədə məlumat verib. Bildirib ki, qarşıdakı dövrdə aqrar sığortanın əhatə etdiyi sığorta predmetlərinin və sığorta risklərinin siyahısının genişləndirilməsi nəzərdə tutulur. Sığortaya cəlb edilməsi nəzərdə tutulan sahələrdən biri də arıçılıq təsərrüfatlarıdır. Sədr deyib ki, görüşün məqsədi Azərbaycan arıçılarının arı təsərrüfatlarının sığortası ilə bağlı risklərini və sığorta imkanlarını müzakirə etməkdir.

Azərbaycan Arıçılar Assosiasiyasının sədri Bədrəddin Həsrətov isə tədbir iştirakçılarına məlumat verərək söyləyib ki, ölkənin demək olar bütün bölgələrində ümumilikdə 650 mindən artıq arı ailəsi var. 2023-cü ildə bu sahədə ciddi itkilərin baş verdiyi, böyük sayda arı ailələrinin müxtəlif səbəblərdən məhv olduğunu deyən assosiasiya rəhbərinin sözərinə görə, arı ailələri üçün əsas risklər - yoluxucu xəstəliklər, dolu yağması, sel, daşqın, quraqlıq nəticəsində bitki örtüyünün olmaması, vəhşi heyvanların, o cümlədən ayıların hücumu və s.-dir. Bundan başqa, arı ailələri daşınma zamanı stress, avtomobil qəzaları, əkin sahələrinin dərmanlanması zamanı zəhərlənmə kimi hallar nəticəsində də tələf olur. Görüşdə bildirilib ki, ötən il belə hallar, xüsusilə sel və daşqınlar nəticəsində minlərlə arı ailəsi tələf olub. Ona görə də arıçılara dəyən zərərin qarşılanması baxımından aqrar sığortanın əhəmiyyəti böyükdür.

Assosiasiya üzvləri ilə görüşdə arı ailələrinin sığortalanması sahəsində qardaş Türkiyənin təcrübəsi geniş müzakirə edilib. Qeyd olunub ki, həmin təcrübədən istifadə arıçılarda sığortaya marağı artırar.

Görüşdə arı ailələrinin sığorta məqsədləri üçün qeydiyyatı və identifikasiyası, hadisələrin təsbiti üsulları, arı ailələrinin qiymətləndirilməsi ilə bağlı məsələlər təcrübəli arıçılar və fondun mütəxəssislərinin iştirakı ilə müzakirə edilib.

***Rüstəm KAMAL, "Azərbaycan"***

## Salyanda üzümçü fermerlər maarifləndirilib

**Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Salyan Regional Təlim Mərkəzi və Üzümçülük və Şərabçılıq Elmi Tədqiqat İnstitutunun (ÜŞETİ) təşkilatçılığı ilə "Alimlər fermerlərin yanında" layihəsi çərçivəsində Salyan rayonunda tarla seminarı keçirilib.**

"Üzüm bitkisində budama, aqrotexniki qulluq işlərinin vaxtında yerinə yetirilməsi, xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirləri" mövzusunda keçirilən seminarda üzümçü fermerlər iştirak edib.

Seminarda ÜŞETİ-nin mütəxəssisləri tərəfindən üzümün budanması, aqrotexniki qulluq işlərinin aparılması, xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirləri barədə ətraflı məlumat verilib. Məhsulun yüksək və keyfiyyətli olması üçün son dövrlərdə müşahidə edilən ekoloji amillərin yarada biləcəyi risklərin yumşaldılması və onların üzüm bitkisinə mənfi təsirinin azaldılması yolları diqqətə çatdırılıb. Eyni zamanda üzümdə çiçəkləmənin və tozlanmanın normal baş verməsi, yaşıl əməliyyatların aparılması və gübrələrin tətbiqi, budamanın aparılma vaxtı və qaydaları haqqında fermerlərə tövsiyələr verilib. Qeyd edilib ki, quru budama əsasən yarpaqlar töküldükdən 15-20 gün sonra başlayıb mart ayına kimi həyata keçirilə bilər. Belə ki, qısa budama (kəsmə) zamanı dib gözləri barlı olan üzüm sortlarında zoğlar 1-3 gözə kəsilməlidir. Bu zaman ikiillik budaqdan 0,5 sm məsafədə yerləşən gözlər nəzərə alınmır. Ümumiyyətlə isə qısa kəsmə kimi 4-5 gözcük əsas götürülə bilər. Bunlar da tənəyə verilən formadan, tənəyin boy gücündən, torpaq-iqlim şəraitindən asılıdır. Budama (kəsmə) zamanı bar zoğlarının 6-8 gözcüyə kəsilməsi orta kəsmə hesab edilir. Uzun budama (kəsmə) zamanı isə zoğlarda 9-10 gözcükdən 15-20-yə qədər gözcük saxlanıla bilər. Bu göstəricilər konkret olaraq kəsmə növlərindən, torpaq-iqlim şəraitindən və sortun bioloji xüsusiyyətindən asılı olaraq müəyyən edilir.

Tədbirin sonunda fermerlərə üzümçülükdə budama, aqrotexniki qulluq işlərini, xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirləri və təhlükəsizlik qaydalarına əməl olunması məsələlərini əks etdirən broşür və bukletlər paylanıb.

***Seyran CAVADOV, "Azərbaycan"***

## Naxçıvanda UNICEF-in Azərbaycan nümayəndəliyi təlimlər keçirir

**BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycan nümayəndəliyi Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə təlimlərə başlayıb.**

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Xəstəxanasında təşkil olunan təlimin açılış tədbirində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin sədri, Yuvenal Ədliyyə Mərkəzinin rəhbəri Kəmalə Aşumova, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, Yuvenal Ədliyyə Mərkəzinin hüquqşünası, UNICEF-in təlimçi-eksperti Rafiq Alışov, mərkəzin psixoloqu Gülşən Axundova yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi sahəsində, eləcə də "Uşaq hüquqları haqqında" BMT Konvensiyasının müddəalarının tələblərinə uyğun həyata keçirilən dövlət siyasətindən danışıblar.



Bildirilib ki, uşaq hüquqlarının müvafiq aspektlərində təlimlərin keçirilməsində məqsəd qazanılan təcrübənin bölüşdürülməsi ilə aidiyyəti qurumların əməkdaşlarının bilik və bacarıqlarının təkmilləşdirilməsidir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə UNICEF-in təyin etdiyi təlimçilər tərəfindən muxtar respublikada təlimlərin 4 proqram əsasında keçirilməsi nəzərdə tutulub.

# Qalib xalqın vətənpərvər gəncliyi

## Nicat ƏLİYEV: "Soçidə keçirilən Ümumdünya Gənclər Festivalında Zəfərimizdən doğan böyük ruh yüksəkliyi ilə iştirak etdik"

**2024-cü il 1-7 mart tarixlərində Rusiyanın "Sirius" Federal Ərazisində (Soçi yaxınlığında) Ümumdünya Gənclər Festivalı keçirilib. Dünyanın 188 ölkəsindən 300 mindən çox gəncin müraciət etdiyi beynəlxalq tədbirdə Rusiya və xarici ölkələrin 18-35 yaşarası 20 min nümayəndəsi iştirak edib. Festivala biznes, media, beynəlxalq əməkdaşlıq, mədəniyyət, elm, təhsil, könüllülük və xeyriyyəçilik, idman, ictimai həyatın müxtəlif sahələrindən olan gənc liderlər qatılıb.**






Ümumdünya Gənclər Festivalı tədbirləri həmrəylik, bərabərlik, ədalət, qarşılıqlı yardım, komanda işi və xeyirxahlıq kimi ümumi dəyərlər üzərində qurulub. Beynəlxalq tədbirdə iştirak edən 150-yə yaxın azərbaycanlı gəncdən biri də Azərbaycan Dillər Universitetinin Tələbə Gənclər Təşkilatının sədri Nicat Əliyev olub.

"Dünya Gənclər Festivalı 2024"ün fərqli ölkələrdən olan gənclərin bir araya gəlməsi, onların şəbəkələşməsi, əlaqələrin qurulması, gücləndirilməsi istiqamətində mühüm platforma olduğunu deyən Nicat Əliyev söyləyir ki, istər müxtəlif yüksəksəviyyəli silsilə tədbirlərdə fəal iştirak, istərsə də ölkəmizlə bağlı həqiqətlərin dünyanın dörd bir tərəfindən gəlmiş gənclər vasitəsilə beynəlxalq arenaya çatdırılması baxımından Azərbaycan nümayəndə heyətinin Soçidə keçirilən festivalda iştirakının çox məhsuldar olduğunu deyə bilərik: "Ən ümdəsi gənclərimiz bu festivalda Zəfərimizdən doğan böyük ruh yüksəkliyi ilə çıxış etdilər. Biz orada Azərbaycanı qalib xalqın qalib gəncliyi kimi təmsil edir, tarixə, ədalətə, beynəlxalq hüquqa dayanan güclə haqq işimizi, ölkəmizi tanıdırıq".

### "İlin Tələbə Gənclər Təşkilatı Sədri"

2004-cü ildə Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açan, əslən Qərbi Azərbaycandan olan Nicat Pərviz oğlu Əliyev 2021-ci ildə Azərbaycan Dillər Universitetinin Alman dili müəllimliyi ixtisasına qəbul olub. Təhsil ocağında sosial sahədə də aktiv fəaliyyətə başlayan Nicat Əliyev əvvəlcə universitetin Tələbə Gənclər Təşkilatının sədr müavini, 2023-cü ildən isə sədri olub. Bununla yanaşı "ASAN xidmət"də könüllü olaraq fəaliyyət göstərib. Hazırda isə o, Xarici İşlər Nazirliyində diplomatik könüllü kimi xidmət göstərir.

Qeyd edək ki, bu il Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) tərəfindən 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə Tələbə Gənclər Təşkilatlarının Respublika Forumu keçirilib. Forumda Azərbaycan Dillər Universitetinin Tələbə Gənclər Təşkilatının sədri Nicat Əliyev "İlin Tələbə Gənclər Təşkilatı Sədri" nominasiyasına layiq görülüb.

### Gənclər siyasəti dövlətimizin prioritetidir

Vaxtilə Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş gənclər siyasəti sayəsində sağlam əqidəli, çağdaş düşüncəli, milli ruhlu Azərbaycan gəncliyinin yetişdiyini deyən Nicat Əliyev bildirir ki, məhz həmin siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün gənclər cəmiyyətimizin ən aparıcı qüvvəsinə çevriliblər: "Ulu Öndərin 1997-ci ildə 2 Fevral - Gənclər Gününü təsis etməsi mühüm hadisə idi. Onu da xüsusi qeyd edim ki, hətta 12 Avqust - Dünya Gənclər Günü Azərbaycanda bu gün təsis olunandan bir neçə il sonra yaradılıb. Təbii ki, bu, gənclərimizin sosial fəallığı, onların maarifləndirilməsi istiqamətində öz töhfəsini verdi. Onlar üçün yaradılan hərtərəfli şəraitdən yararlanan gənclərimiz dünyaya çıxdılar, müxtəlif ölkələrin nüfuzlu universitetlərində təhsil aldılar, eyni zamanda xaricdə də təşkilatlanmağa, ölkəmizin milli maraqları uğrunda həmrəyliklə mübarizə aparmağa başladılar".

Prezident İlham Əliyevin şəxsi diqqəti sayəsində gənclər siyasətinin dövlətimizin prioriteti olduğunu söyləyən təşkilat sədri vurğulayır ki, dövlət qurumlarında könüllü ictimai fəaliyyət dünyanın heç bir ölkəsində yoxdur. Amma Azərbaycanda nəinki dövlət qurumlarında, ümumiyyətlə, bütün sahələrdə könüllülük fəaliyyəti geniş vüsət alıb. Yəni könüllülük dövlət gənclər siyasətinin bir qoludur və bu, biz gənclər üçün böyük şansdır: "Son 20 ildə Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, gənclər siyasəti istiqamətində də mühüm işlərə imza atıb. Azərbaycan gəncliyinin fiziki və mənəvi inkişafından, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasından tutmuş onlar haqqında hüquqi normativ bazanın yaradılmasına qədər hər bir sahədə ardıcıl və sistemli tədbirlər həyata keçirib".

### İnformasiya savaşının gənc fəalı

Nicat Əliyev söyləyir ki, gənclərimiz Azərbaycanı bütün beynəlxalq platformalarda uğurla təmsil edirlər, mövqeyimizi qətiyyətlə müdafiə edirlər. 44 günlük Vətən müharibəsində isə bütün dünya Azərbaycan gəncliyinin vətənpərvərliyinin əyani şahidi oldu: "Düşmənə qalib gəlmək üçün hərblə yanaşı, informasiya müharibəsinin aparılması da çox vacib şərtdir. Vətən müharibəsi günlərində Azərbaycan gəncliyi sözün əsl mənasında iki cəbhədə döyüşdü - yarısı əldə silah ön cəbhədə, yarısı da sosial şəbəkələrdə, müxtəlif beynəlxalq KİV vasitələrində ölkəmizin haqlı mövqeyini təbliğ edərək, həqiqəti dünyaya çatdıraraq düşmənlə layiqli mübarizə apardı. Mən özüm də tviter (indi "X") sosial şəbəkəsində, daha çox MDB məkanının olduğu "kontakte.ru" və digər sosial platformalarda Azərbaycan həqiqətlərinin çatdırılması, cənab Ali Baş Komandan İlham Əliyevin tviter hesabından etdiyi paylaşımların dünya ictimaiyyətinə çatdırılması istiqamətində işlər gördüm. Real faktlar vasitəsilə əsl gerçəklərin beynəlxalq aləmə çatdırılması üçün əlimdən gələni etməyə çalışdım".

Nicat Əliyev bildirir ki, 2022-ci ilin dekabrında Laçın-Xankəndi yolunda ekofəallarımızın keçirdiyi dinc etiraz aksiyası zamanı da rəhbəri olduğu təşkilat fəal iş aparıb: "Universitetimizin qız və oğlanlardan ibarət əlliyə yaxın tələbəsi aksiyada iştirak etdi, qar-borana, şaxtaya baxmadan son günə qədər haqlı etirazlarını bildirdilər".

### Əhəmiyyətli və məhsuldar görüşlər

Bu il 1-7 mart ərəfəsində Soçidə keçirilən Ümumdünya Gənclər Festivalı barədə ətraflı məlumat verən gənc Azərbaycan nümayəndə heyəti olaraq bütün vacib tədbirlərdə fəal iştirak etməyə qərar verdiklərini söyləyir: "Lakin saylar məhdud olduğuna, məsələn, əksər hallarda bir tədbirə ancaq 50-60 nəfərin qatıla bildiyinə görə çalışdım ki, sırf bizim üçün məhsuldar ola biləcək, əhəmiyyətli tədbirlərə qoşulaq. Bəzən hətta müraciət etmək belə məqbul sayılmırdı, canlı növbə vasitəsilə tədbirə buraxılırdın. Bunlardan biri Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedevin tədbiri idi. Martın 4-də keçirilən tədbirdə Dmitri Medvedevlə kiçik dialoqum da baş tutdu. Həmçinin Rusiya xarici işlər naziri Sergey Lavrovun, Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskovun tədbirində iştirak etdim. Dmitri Peskovun tədbirində 100 nəfər iştirak edirdi və cəmi 5 nəfərə sual vermək haqqı tanınmışdı ki, onlardan da biri mən idim. Martın 6-da isə Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə festivalın bağlanış mərasimi oldu".

Təşkilat sədri qeyd edir ki, festival ərəfəsində xarici ölkələrin gənclər təşkilatlarının sədrləri ilə də görüşlər keçirərək Azərbaycan həqiqətlərini onlara çatdırıblar: "İstər Rusiyadan, istərsə də Afrika, Avropa, Asiya ölkələrindən olsun, müxtəlif millətlərdən olan gənclərlə görüşüb, gələcəkdə nə kimi fəaliyyət göstərəcəyimizlə bağlı müzakirələr apardıq, kontaktları bölüşdük ki, ən azından ilkin mərhələdə onlayn görüşlər təşkil edək".

### Düşmən fitnəsinə layiqli cavab

Nicat Əliyev "Ümumdünya Gənclər Festivalı 2024" çərçivəsində Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarovanın iştirakı ilə baş tutan konfransda Ermənistan tərəfindən törədilən Xocalı soyqırımı hadisəsinə də toxunduğunu bildirdi: "Mariya Zaxarova mənə cavabında dedi ki, "bəli, biz bu soyqırımı tanıyırıq, amma biz xalqlar çalışmalıyıq ki, gələcəyimizə baxaq". Mən isə öz növbəmdə vurğuladım ki, "biz qətiyyən xalqların düşmənçiliyini istəmirik, amma heç zaman da tariximizi unutmuruq, unutdurmuruq".

Soçidə keçirilən festivalda hər bir ölkənin mədəni irsini nümayiş etdirməsi üçün stendlər də olub. Təşkilat sədri deyir ki, Azərbaycan yaradıcı heyəti çıxış edən zaman onlar erməni təxribatı ilə üzləşiblər. Belə ki, erməni separatçı qüvvələri artıq tarixin zibilliyinə tolazlanmış qondarma qurumun əski parçasını tədbirdə nümayiş etdirmək istəyiblər, ancaq azərbaycanlı gənclər onların bu murdar niyyətinə imkan verməyiblər: "Biz dərhal təşkilatçılara etiraz və iradlarımızı bildirdik və onlar qısa müddətdə bu təxribatı aradan qaldırdılar. "Sarı gəlin" xalq mahnımız ifa olunanda da ermənilər müəyyən təxribatlara əl atır, müxtəlif yollarla bizi təhrik etməyə çalışırdılar ki, aramızda nəsə münaqişə yaransın və Azərbaycan tərəfini günahkar çıxarsınlar. Təbii ki, biz bu təxribatlara uymadıq. Onların bütün təxribatlarının qarşısını qanun-qayda yolu ilə aldıq".

### İşıqlı gələcəyin açarı gəncliyin əlindədir

2023-cü ilin rəhbərlik etdiyi ADU TGT üçün olduqca məhsuldar il olduğunu da diqqətə çatdıran Nicat Əliyev məlumat verdi ki, həm dövlətin gənclər siyasəti istiqamətində, həm də "Heydər Əliyev İli" çərçivəsində silsilə tədbirlər təşkil ediblər: "Azərbaycan gəncliyinin formalaşması, daha da irəli getməsi istiqamətində əlimdən gələn qədər fəaliyyət göstərməyə çalışıram. Yüksək təhsil almaqla bərabər, tələbə gənclərin həm də sosial fəaliyyətlə məşğul olmasını təşviq edirəm. Belə olarsa, gələcəyimiz daha da işıqlı olar".

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabının təqdimat mərasimi keçirilib






**Azərbaycan Milli İncəsənət Muzeyində XX əsrin görkəmli ədibi, alimi, pedaqoqu, professor Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabının müzakirəsi və təqdimat mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinin dahi şairimiz və mütəfəkkirimiz Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi ilə bağlı sərəncamına uyğun olaraq keçirilən tədbir Mədəniyyət Nazirliyi, Azərbaycan Milli İncəsənət Muzeyi və Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkilatçılığı ilə baş tutub.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Humanitar fənlər kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Tərlan Quliyev çıxışında "Füzuli sənətkarlığı" kitabının qiymətli mənbə olduğunu qeyd edib. "Füzulişünaslığın elmi-metodoloji tətbiqinə baxdıqda görürük ki, Füzulinin poetik xüsusiyyətləri haqqında ilk kitabı Mir Cəlal Paşayev yazıb. İnanırıq ki, gələcək nəsillər də bu kitabdan çox istifadə edəcək", - deyə o bildirib.

Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru Şirin Məlikova zəngin sənət dünyasından bəhs edən "Füzuli sənətkarlığı" kitabında şairin bədii və fəlsəfi mahiyyətinin mükəmməl şəkildə şərh olunduğunu diqqətə çatdırıb. Vurğulayıb ki, bu əsər Füzuli yaradıcılığının araşdırılmasında ən böyük və qiymətli mənbələrdən biridir.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının prorektoru, Xalq artisti Yeganə Axundova, ADA Universitetinin prorektoru Fariz İsmayılzadə və Milli Məclisin deputatı Ceyhun Məmmədov kitab haqqında fikirlərini bölüşüblər.

Təqdimat mərasimində muzeyin kolleksiyasından böyük şairin obrazı və poeziyasını əks etdirən əsərlər nümayiş olunub, həmçinin Bakı Musiqi Akademiyası və Azərbaycan Milli Konservatoriyası tərəfindən Füzuli poeziyasına bəstələnmiş klassik əsərlər və muğam triosunun ifaları səsləndirilib.

Kitab XVI əsrdə yaşayıb-yaratmış dahi şairimiz Məhəmməd Füzulinin ədəbi yaradıcılığı və sənəti, o cümlədən şeir mədəniyyəti və bədii nəsri haqqında elmi araşdırmaları əks etdirir. Mir Cəlal Paşayev əsərində Füzuli yaradıcılığının ayrı-ayrı mərhələləri və motivlərinin araşdırılması ilə yanaşı, onun ümumi ədəbi mənzərəsini elmi cəhətdən göstərməyə nail olub.

# Qış məktəbinin iştirakçıları İlahiyyat İnstitutunda olublar

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) mühüm layihələrindən olan "Sabahın liderləri: gənclər "sivilizasiyaların toqquşması"na qarşı" mövzusunda təşkil olunan XIV Beynəlxalq multikulturalizm qış məktəbinin iştirakçıları Azərbaycan İlahiyyat İnstitutunda (AİI) olublar.**



AİI rektoru dosent Aqil Şirinov Qış məktəbinin iştirakçılarına Azərbaycanda mövcud olan dinlərarası harmoniya, həmçinin ali təhsil müəssisəsinin fəaliyyəti barədə ətraflı məlumat verib. Azərbaycanın tarixən müxtəlif mədəniyyətlərin və dinlərin kəsişməsində yerləşdiyini qeyd edən rektor ölkəmizdə mövcud dinlərarası harmoniyadan bəhs edib. A.Şirinov Azərbaycanda tarixən müxtəlif dinlərin və məzhəblərin nümayəndələrinin birlikdə sülh şəraitində yaşadıqlarını vurğulayıb. Ölkəmizin dinlərarası harmoniya, tolerantlıq və multikulturalizm ənənələri, eyni zamanda məzhəblərarası münasibətlər baxımından dünyaya nümunə olduğunu diqqətə çatdırıb.

A.Şirinov daha sonra ali təhsil müəssisəsinin yaranması və fəaliyyəti haqqında geniş məlumat verib. Bildirib ki, institutda xüsusilə "Dinşünaslıq" ixtisasında islamla yanaşı, digər dinlər haqqında kifayət qədər geniş məlumatlar verilir. Bu məlumatların normativ deyil, deskriptiv yolla tədris olunduğunu vurğulayıb. O, magistratura səviyyəsində müxtəlif dinlərlə bağlı olan ixtisaslaşmalar haqqında da məlumat verib.

*"Azərbaycan"*

# Bakıda Su Həftəsi keçirilir

## Beynəlxalq tədbirdə 16 ölkədən 90 şirkət iştirak edir

**Bu gün dünya fəlakətə səbəb ola biləcək bir sıra qlobal problemlərlə üz-üzədir. Xüsusilə su çatışmazlığı dünyanı təhdid edən vacib məsələlərdən birinə çevrilib. O üzdən etibarlı su təchizatına nail olmaq və su ehtiyatlarından səmərəli istifadə etmək dünya ölkələri qarşısında duran strateji məsələ hesab olunur.**




Zaman-zaman beynəlxalq səviyyədə su ilə bağlı tədbirlər keçirilir. Həmin tədbirlərdə əhalinin keyfiyyətli və davamlı olaraq sudan istifadəsinin təmin edilməsi, su çatışmazlığı ilə bağlı təhdidlərin aradan qaldırılması yolları axtarılır, ətraf mühit və ekoloji vəziyyət, iqlim dəyişiklikləri və quraqlıq kimi məsələlər müzakirə edilir, vəziyyətdən çıxış yolları axtarılır.

Qlobal iqlim dəyişiklikləri və qlobal su böhranı formaca ayrı olsa da, məzmunca eynidir. Üstəlik, su böhranını yaradan iqlim dəyişiklikləridir. Sudan düzgün istifadə edilməməsi isə iqlim böhranını sürətləndirir və lazımsız istixana qazı emissiyalarına səbəb olur. Xeyli zamandır bir medalın iki üzü olan hər iki problemi həll etmək dünya ekoloqlarının əsas vəzifəsinə çevrilib. Noyabrda Bakı COP29-a evsahibliyi edəcək və problemin çözülməsi yolları Azərbaycanda axtarılacaq. Bu həftə isə paytaxtımız Su Həftəsinə evsahibliyi edir.

Dünən "Bakı Ekspo" Mərkəzində işə başlayan Su Həftəsi daha iki gün davam edəcək. Tədbir çərçivəsində su təsərrüfatı sahəsinin aparıcı nümayəndələri ilə görüşlər keçiriləcək, ən son texnoloji məhsullar və sektorun inkişaf strategiyaları barədə məlumat veriləcək, eləcə də perspektiv müqavilələr imzalanacaq. Azərbaycanda ilk dəfə keçirilən bu tədbir içməli suların emalı, su təchizatı və tullantı sular üzrə inşaat, qazma texnikası və avadanlığı, su təsərrüfatı obyektlərinin layihələndirilməsi və tikintisi, su təsərrüfatında informasiya və kommunikasiya texnologiyaları, suyun duzsuzlaşdırılması texnologiyaları, təbii fəlakətlərə qarşı tətbiq olunan texnologiyalar, laboratoriya avadanlıqları, tullantı və yağış sularının axıdılması və emalı sistemləri üzrə bölmələri əhatə edir.

Azərbaycanda etibarlı su təchizatına nail olunması dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu sahənin ölkədə daha sonrakı inkişafı, mövcud çətinliklərin və həll yollarının müzakirəsi, maraqlı tərəflər üçün yeni fürsətləri əlçatan etmək məqsədi ilə keçirilən Bakı Su Həftəsi Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin dəstəyi ilə təşkil edilib. Tədbirin təşkilində məqsəd Azərbaycanda bu sahənin daha da inkişafı üçün investisiyaların cəlb edilməsi, eləcə də Qarabağın bərpası, yenidən qurulması yönümündə içməli su təminatının gücləndirilməsidir.

Bakı Su Həftəsinin açılışında çıxış edən Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov bildirib ki, ölkəmizdə belə bir tədbirin təşkili təqdirəlayiq haldır: "Bu tədbir mütəxəssislərə, hökumət təşkilatlarına və biznes sektoruna bilik və təcrübə mübadiləsi, yeni ideyaları araşdırmaq və su ilə bağlı problemlərin həlli üçün innovativ üsullar tapmaq imkanı yaradacaq. Su təsərrüfatı sahəsində beynəlxalq tədbirin keçirilməsi Azərbaycanda bu sektora yeni texnologiyaların tətbiqinə zəmin yaradacaq, həmçinin yerli və xarici şirkətlər arasında əməkdaşlığın daha da genişlənməsi ilə yadda qalacaq".

"İteca Caspian" şirkətinin direktoru Edvard Stroun su texnologiyaları sərgisinin keçirilməsinə göstərilən təşəbbüsə və dəstəyə görə təşəkkür edib. Qeyd edib ki, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən göstərilən dəstək tədbirin təşkilində böyük rol oynayır və onun yüksək səviyyədə keçməsinə zəmin yaradır.

Tədbirdə 16 ölkədən 90-a yaxın şirkət iştirak edir. İştirakçı şirkətlərin təmsil etdiyi ölkələr sırasına Azərbaycandan başqa, Almaniya, ABŞ, Avstriya, Avstraliya, Belarus, Belçika, Böyük Britaniya, Çexiya, Danimarka, Gürcüstan, İsrail, İsveçrə, Qazaxıstan, Türkiyə və Rusiya Federasiyası daxildir.

Bakı Su Həftəsi bir sıra önəmli şirkətlər tərəfindən dəstəklənir. Sərginin qızıl sponsorları "Acwa Power", "AgroFoodInvestment", "Geo SU Group", "Hidroloq" MMC, gümüş sponsorları "IDE Technologies", "Körpü Bina Tikinti", "Coca-Cola", bürünc sponsorları "Kolin İnşaat", "Özgün İnşaat","Qarabağ-ER" və "Aztəsərrüfat" MMC, konsaltinq tərəfdaşı isə "Mekorot" şirkətləridir. Bu mühüm şirkətlərin dəstəyi tədbirin əhəmiyyətinin və aktuallığının göstəricisidir.

Su Həftəsi martın 16-da başa çatacaq.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

# Azərbaycan Yaponiyada "Expo 2025" sərgisində iştirak edəcək

**Azərbaycan gələn il Yaponiyada "Expo 2025" sərgisində iştirak edəcək. İxracın və İnvestisiyaların Təşviqi Agentliyindən (AZPROMO) AZƏRTAC-a bildirilib ki, qurumun nümayəndə heyətinin "FOODEX Japan 2024" sərgisi ilə bağlı Tokio şəhərinə səfəri çərçivəsində Yaponiyanın Xarici Ticarət Təşkilatında (JETRO) görüş keçirilib.**

azpromo
Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi

Görüşdə qurumların fəaliyyət istiqamətləri haqqında məlumat verilib, ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı barədə fikir mübadiləsi aparılıb, növbəti ilin aprel-oktyabr aylarında Yaponiyanın Osaka şəhərində baş tutacaq "Expo 2025" sərgisində Azərbaycan şirkətlərinin geniş iştirakı müzakirə olunub.

Bundan başqa, görüşdə ölkəmizin investisiya və ixrac imkanları qarşı tərəfin diqqətinə çatdırılıb, JETRO-nun qlobal və Yaponiya ofisləri ilə bu xüsusda məlumat mübadiləsinin aparılmasına dair razılıq əldə olunub.

Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 14.03.2024-cü il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

# XTQ-nin hissə və bölmələrinin təlimlərində dərin qar və şiddətli soyuqlarda döyüş əməliyyatlarının aparılması icra edilib





**Bu ilin hazırlıq planına əsasən, Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) hissə və bölmələri ilə "Dərin qar və şiddətli soyuqlarda döyüş əməliyyatlarının aparılması" mövzusunda keçirilən taktiki-xüsusi təlimdə müxtəlif fəaliyyətlər icra edilib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, təlimin planına uyğun olaraq, xüsusi təyinatlılar xəritə üzərində tapşırıqları dəqiqləşdirərək əməliyyat rayonunun dərinliyinə sızıb, şərti düşmənin diversiya qrupunun zərərsizləşdirilməsi üzrə tapşırıqları yerinə yetiriblər. Həmçinin yüksək dağlıq və çətin keçilən ərazilərdə, eləcə də sərt enişlərdə, sıldırım yamaclarda dağçılıq ləvazimatlarından istifadə etməklə hərəkət qaydaları məşq etdirilib.

Taktiki təlimdə snayperlər fərdi və cütlük şəklində hərəkət, atəş mövqeyinin seçilməsi, maskalanma, müxtəlif məsafələrdə yerləşən hədəflərə atəş açma tapşırıqlarını da müvəffəqiyyətlə icra ediblər.

Bölmələrin idarə edilməsi üzrə komandir heyətinin bilik və bacarıqlarının artırılması, döyüş əməliyyatları və xilasetmə tədbirlərinin aparılması, eləcə də hərbi qulluqçuların praktiki vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən təlimdə xüsusi təyinatlıların fəaliyyəti yüksək qiymətləndirilib.

# Dezinformasiya yaymış sosial şəbəkə səhifəsinin xaricdən idarə olunduğu öz təsdiqini tapıb

**Sosial şəbəkələrin xarici seqmentində Bakı şəhərindəki bəzi məktəblərə silahlı hücum planlaşdırıldığı ilə bağlı insanlarda həyəcan və süni ajiotaj yaratmağa yönələn məlumatlar yayımlanıb və vətəndaşlarımız arasında narahatlığa səbəb olub.**

Bu barədə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib.

Qeyd edilib ki, reallıqdan uzaq olan analoji aksiyaların daha əvvəl saxta adlardan istifadə edilməklə sosial şəbəkələr vasitəsilə bəzi xarici ölkələrdəki təhsil müəssisələri ilə əlaqədar həyata keçirildiyi məlumdur.

Əməliyyat-texniki tədbirlər zamanı sözügedən sosial şəbəkə səhifəsinin xaricdən idarə olunduğu öz təsdiqini tapıb, xarici tərəfdaşlarla həyata keçirilmiş birgə təxirəsalınmaz tədbirlərlə məlum sosial şəbəkə kanalını yaratmış ölkə ərazisində hər hansı təhdid doğurmaq imkanında olmayan şəxslər və onların Azərbaycan Respublikası ilə heç bir əlaqəsinin olmadığı müəyyən edilib. Bu istiqamətdə zəruri tədbirlər həyata keçirilir.

Həmçinin eyniadlı "Telegram" səhifəsində yerləşdirilmiş, Bakı şəhəri Nizami rayonu 229 saylı tam orta məktəbə aid fotoşəkli həmin məktəbin azyaşlı şagirdinin 2024-cü il martın 12-də çəkdiyi və özü tərəfindən eyni adda və məzmunda yaradılan kanala yerləşdirildiyi müəyyənləşdirilib, həmin şəxs qanuna müvafiq qaydada istintaqa cəlb olunub.

"Hazırda dünyada çoxsaylı sosial şəbəkələrin fəaliyyət göstərdiyi, onların texniki imkanlarından hər cür dezinformasiya məqsədləri üçün istifadə mümkünlüyünün məlum olduğu vaxtda ölkə ictimaiyyətini əhali arasında narahatlıq yaradılması məqsədilə paylaşılan bu kimi qeyri-ciddi məlumatlara inanmamağa, belə aşkar əsassız məlumatları geniş auditoriyaya yayaraq təşviş yaradanları qınamağa çağırır, bu qəbildən olan informasiyaların aidiyyəti orqanlar ilə birgə daim ətraflı yoxlanıldığını bildiririk", - deyə DTX-nin açıqlamasında bildirilib.

# Avropa İttifaqı ərzaq böhranı təhlükəsi ilə üzləşib

## Fransalı fermerlər yenə polis zorakılığına məruz qalıblar

**Avropa İttifaqının bəzi ölkələrində fermerlər tənzimləyicilərin kənd təsərrüfatının inkişafına mane olan çoxsaylı qanunvericilik tələblərinə, habelə Ukrayna kənd təsərrüfatı məhsullarının Aİ-yə nəzarətsiz idxalına etiraz edirlər.**



Fransada iğtişaşlar davam edir. Bordoda fermerlər Regional Şuranın binası qarşısına toplaşıblar. Onlar hökumətin dəstəyinin olmaması nəticəsində kənd təsərrüfatı və şərabçılığın geriləməsinə qarşı etiraz aksiyası keçiriblər. Çoxları traktorla gəlib binanın qapısına peyin töküb, təhlükəsizlik qüvvələrinin sədlərini söküblər.

"Kənd Koordinasiyası" həmkarlar ittifaqı bildirir ki, fermerlər Bordoda Yeni Akvitaniya regional müşavirlərinin toplantısının keçirildiyi bir vaxtda etiraz aksiyasına çıxıblar. Həmkarlar ittifaqının rəhbəri Veronik Le Flokun dediyinə görə, son 20 ildə Yeni Akvitaniyada hər dördüncü ferma bağlanıb, mal-qaranın sayı yüz minlərlə baş azalıb, şərabçılıq tənəzzülə uğrayıb.

Regional şuranın binası qarşısında "60 min fermanı xilas etmək üçün" etiraz aksiyası keçirilib. Etirazda yüzlərlə fermer iştirak edib. Gecələr kökündən qoparılmış üzüm ağacları və peyinlə binanın girişini bağlayıblar. Səhər saatlarında etirazçılar hasarların yanına təkər və saman tökərək onları yandırmağa cəhd ediblər. Etirazları yatırtmaq üçün polisin xüsusi təyinatlı dəstəsi (CRS) müdaxilə edib və gözyaşardıcı qazdan istifadə olunub.

Polşanın mərkəzi Böyük Polşa bölgəsində etiraz edən fermerlər aksiya zamanı Poznan şəhəri ətrafındakı yollara 580 traktor və digər kənd təsərrüfatı maşınları gətiriblər. Rayonda 16 yerdə yollar bağlanıb.

Etiraz aksiyasının təşkilatçılarının kommünikesində deyilir: "Yolları bağlamaqla biz hökumətə təzyiq etmək istəyirik. Biz soydaşlarımızdan dəstək və anlayış istəyirik".

Növbəti milli etiraz aksiyası martın 20-də keçiriləcək. Təşkilatçılar həmin gün şəxsi avtomobili ilə işə getməyi planlaşdıranlara "istirahət etməyi" tövsiyə ediblər.

Xatırladaq ki, ötən həftə Varşavada fermerlərin etiraz yürüşü iğtişaşlara çevrilib. Nəticədə 14 polis əməkdaşı yaralanıb. 30-a yaxın etirazçı saxlanılıb.

İspaniyalı fermerlər quraqlıqla mübarizə, iş şəraitinin yaxşılaşdırılması, məhsullarına ədalətli qiymətlərin müəyyən edilməsi, kənd təsərrüfatı üçün dizel yanacağına vergi güzəştlərinin saxlanması və kənd təsərrüfatı texnikasının yenilənməsi üçün vəsait ayrılmasını tələb edirlər. Oxşar tələblər bir sıra digər ölkələrin fermerləri tərəfindən də irəli sürülür.

Son məlumata görə, Finlandiyadan olan kənd təsərrüfatı işçiləri avropalı fermerlərin kütləvi etirazlarına qoşulacaqlar. Yerli həmkarlar ittifaqları ikihəftəlik tətil elan ediblər. Sənaye müəssisələrinin və Finlandiya limanlarının işi dayandırılacaq. Fermerlər hökumətin bəzi güzəştlərin ləğvini nəzərdə tutan islahatlarına qarşıdırlar.

Son məlumata görə, Avropanın 22 ölkəsi Avropa Komissiyasından kənd təsərrüfatında böhranın aradan qaldırılması üçün konkret müddət göstərilməsini tələb edib.

Avropa Komissiyasının rəhbəri Maros Şefçoviçə və Kənd Təsərrüfatı üzrə Avropa Komissarı Yanuş Voytsexovskiyə göndərilən yazılı müraciətin təşəbbüskarları Fransa və İspaniyanın kənd təsərrüfatı nazirləri Mark Feno və Luis Planas olub. Müraciəti Belçika, Almaniya, Danimarka, Niderland və İsveç istisna olmaqla, Aİ-yə üzv ölkələrin müvafiq nazirləri imzalayıblar. Sənəddə bütün Avropada fermerlərin narazılığına səbəb olan iqtisadi problemlərin həlli üçün konkret tədbirlərə aydınlıq gətirmək çağırışı yer alıb.

Onu da qeyd edək ki, Avropada ərzaq böhranı riskləri tez-tez baş verən təbii fəlakətlər fonunda daha da güclənir. İqlim anomaliyaları fonunda yerli kənd təsərrüfatı sektoru ağır itkilərə məruz qalır.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə

2024-cü il üçün abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Ermənistanda keçmiş hərbi xunta önə çıxmağa cəhd göstərir

## Ölkədə ictimai-siyasi gərginlik artır

**Bu gün - martın 13-də baş nazir Nikol Paşinyanın istefası tələbi ilə müxalifət İrəvanın mərkəzində böyük mitinq keçirməyi planlaşdırır. Son günlər baş verən proseslər güclü qarşıdurma mərhələsinin başlandığını göstərir. Müxalif qüvvələrin Nikol Paşinyan iqtidarına qarşı fəaliyyəti daha da genişlənir. Elə bu xüsusda keçmiş hərbi xunta yenidən önə çıxmağa cəhd göstərir.**

"Birlikdə" hərəkatının nümayəndəsi, sabiq baş nazir Qrant Baqratyan məlumat verib ki, mitinq martın 13-də İrəvanda "Azadlıq" meydanında baş tutacaq. Hərəkat nümayəndələri vətəndaşları mövcud hakimiyyətə qarşı etiraz aksiyalarına qoşulmağa çağırmaq üçün bir çox mühüm görüşlər keçirib: "Vətəndaşları tədricən mübarizəyə qaldıracağıq. Xalq bizə qoşulmalıdır. Biz bütün müxalifət qüvvələri ilə əməkdaşlığa açığıq".

Proseslər Nikol Paşinyan və müxalifət arasında münasibətlərin daha kəskin xarakter almaqda olduğunu göstərir. Belə görünür ki, qarşıdakı günlər ərzində ölkədə ictimai-siyasi gərginlik daha da artacaq.

Vəziyyəti gərginləşdirən başqa bir səbəb isə Paşinyana qarşı olan separatçıların bir qisminin sabiq prezidentlər Serj Sarkisyan və Robert Koçaryan ətrafında birləşməsi, sonuncuların isə yenidən hakimiyyətə iddialı olmalarıdır.

Müxalifət Qarabağdakı qanunsuz "respublikanın" buraxılmasının əsas səbəbkarı qismində Nikol Paşinyanı təqdim edərək, hakimiyyətin yürütdüyü siyasətin dövlətçiliyin itirilməsi təhlükəsi yaratdığını diqqətə çəkməklə cəmiyyəti baş nazirə qarşı qaldırmağa çalışsa da, bu istiqamətdə hələ ki, fiaskoya uğradığı aydın görünməkdədir. Hakimiyyətdən narazı olan erməni cəmiyyətində müxalifətə də heç bir inamın olmadığı, bu düşərgəyə etimad göstərilmədiyi üzə çıxmaqdadır.

Maraqlıdır ki, revanşistlərə separatçıların sonuncu "lideri" Samvel Şahramanyan da qoşulub. "Hraparak" nəşri yazır ki, Şahramanyan bu yaxınlarda Fransa, ABŞ və Rusiyanın Ermənistandakı səfirləri ilə görüşüb. Sözügedən görüşdə Qarabağdan "köçkün" düşmüş ermənilərin geri qayıtması məsələsi müzakirə olunub.

Xatırladaq ki, həmin Samvel 28 sentyabr 2023-cü ildə hələ Xankəndidəykən separatçı rejimin buraxılması haqqında "fərman" imzalayıb. Əgər hansısa qurum hansısa fərmanla buraxılırsa, deməli, bundan sonra heç kimin səlahiyyəti yoxdur ki, buraxılmış qurum adından danışsın. Ona görə da Samvel Şahramanyanın son vaxtlar atdığı addımların nəinki hüquqi, hətta heç bir məntiqi izahı yoxdur.

Göründüyü kimi, baş nazir Paşinyanı təslimçilikdə ittiham edənlər çıxış yolunu onu devirməkdə görsələr də, bunun məsuliyyətini də üzərlərinə götürmək istəmirlər. Özünü müxalif kimi təqdim edən keçmiş hərbi xunta hələ də konseptual strategiya ortaya qoya bilməyib.

Eyni zamanda ölkədə yaranan böhranlı vəziyyət insanları hakimiyyət barədə daha pessimist düşünməyə vadar edir. Çıxılmaz duruma düşməyin yaratdığı duyğular, Hayastanın perspektivinə inanmamaq artıq dayanıqlı şəkil alır. Bu da insanların davranışına və əhvali-ruhiyyəsinə təsir edir. Böhran Hayastanda həyatın bütün sahələrini ağuşuna alıb. Təkcə iqtisadi sferada baş verənlər vəziyyətin nə qədər acınacaqlı olduğunu göstərir.

Beləliklə, regionda baş verən son hadisələr fonunda siyasi dairələr də yaxşı dərk edirlər ki, mövcud vəziyyət Hayastanın xilası üçün bəlkə də son şansdır və bunu maksimum şəkildə dəyərləndirmək lazımdır. Odur ki, sülh müqaviləsinin imzalanmasının uzadılması fonunda İrəvan üzləşdiyi problemlərdən hələ uzun müddət xilas ola bilməyəcək.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

*"Progress-2016" MTK ilə Allahverdi Paşa oğlu Mahmudov arasında bağlanmış Abşeron rayonu Xırdalan şəhəri M.Ə.Rəsulzadə küçəsi, 1A ünvanında yerləşən 5-ci giriş, 9-cu mərtəbə, 70 saylı mənzilə dair 12.12.2018-ci il tarixli 31 №-li müqavilə və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.*

# ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin deputatı Elman Məmmədova əzizi
**BƏXTİYAR ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov və komitənin üzvləri Milli Məclisin deputatı Elman Məmmədova əzizi
**BƏXTİYAR ASLANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev və xidmətin kollektivi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırova əzizi
**ŞAMİL QARAXANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırova əzizi
**ŞAMİL QARAXANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırova əzizi
**ŞAMİL QARAXANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclisin deputatı Elman Məmmədova əzizi
**BƏXTİYAR QULU OĞLU ASLANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırova əzizi
**ŞAMİL QARAXANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırova əzizi
**ŞAMİL QARAXANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Elman Məmmədova əzizi
**BƏXTİYAR ASLANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırova əzizi
**ŞAMİL QARAXANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırova əzizi
**ŞAMİL QARAXANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırova əzizi
**ŞAMİL QARAXANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4298
Sifariş 561

Qiyməti 60 qəpik